Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 11 (8034) ÇƏRŞƏNBƏ, 16 yanvar 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# 16 xarici səfər, 12 prezidentlə görüş

## Prezident İlham Əliyevin ötənilki xarici səfərləri Azərbaycana mühüm diplomatik nailiyyətlər qazandırıb

**2018-ci il də Azərbaycanın xarici siyasət prioritetlərinin həyata keçirilməsi baxımından uğurlu oldu. İl ərzində Azərbaycan beynəlxalq əlaqələrini daha da genişləndirdi, regional və dünya miqyasında ölkəmizin milli maraqlarının effektiv şəkildə təmin edilməsi istiqamətində qətiyyətli addımlar atdı.**

Prezident İlham Əliyevin xarici səfərləri, iştirak etdiyi beynəlxalq toplantılar Azərbaycanın siyasətinin kifayət qədər uğurlu, düşünülmüş və çoxşaxəli olduğunu, dövlətin və xalqın maraqlarına layiqincə xidmət etdiyini göstərir. Hər bir səfər Azərbaycanın ayrı-ayrı dövlətlərlə və təşkilatlarla ikitərəfli və çoxtərəfli əlaqələrinin daha da genişlənməsinə təkan verdi.

### Davos Forumu və Azərbaycana verilən dəyər

Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev bu məsələyə münasibət bildirərək ötən ilin ölkəmizin xarici siyasət prioritetlərinin reallaşması baxımından uğurlu dövr olduğunu deyib: “Keçən il xarici siyasət sahəsində də uğurlu olubdur. Mən keçən il xarici ölkələrə 16 səfər etmişəm və Azərbaycana 16 dövlət və hökumət başçısı səfər edib. Bu, bir daha onu göstərir ki, bizim xarici siyasətimiz çoxşaxəlidir və bizimlə əməkdaşlıq edən ölkələrin sayı gündən-günə artır”.

Hər il olduğu kimi, ötən il də Prezident İlham Əliyev yanvar ayında ilk olaraq Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfər edib. Səfər çərçivəsində dövlət başçısı İsveçrə Konfederasiyasının Prezidenti Alain Berset, İsrail Dövlətinin Baş naziri Benyamin Netanyahu, Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili, Dünya İqtisadi Forumunun prezidenti Börge Brend, eləcə də 17 beynəlxalq təşkilat və şirkət rəhbəri ilə görüşlər keçirib.

Yanvarın 23-də Dünya İqtisadi Forumu çərçivəsində keçirilən “Strateji baxış: Avrasiya” mövzusunda interaktiv iclasda iştirak edən Prezident ölkəmizin sosial-iqtisadi inkişafından, həyata keçirilən siyasi və iqtisadi islahatların uğurlarından bəhs edib. Dövlət başçısı ona ünvanlanan suallara tutarlı arqumentlərlə cavab verməklə bir daha liderlik, natiqlik qabiliyyətini nümayiş etdirib. Eyni zamanda Azərbaycan həqiqətləri barədə geniş məlumat verib.

### Prezident seçkisindən sonra ilk səfər

Aprel ayının 11-də Azərbaycanda keçirilən prezident seçkilərində yenidən xalqın mütləq əksəriyyətinin etimadını qazanaraq dövlət başçısı seçilən İlham Əliyev ilk səfərini aprelin 24-də Türkiyə Respublikasına edib. Aprelin 25-də dövlət başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla təkbətək görüşüb və görüş başa çatdıqdan sonra prezidentlərin iştirakı ilə Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclası keçirilib. İclasdan sonra iki qardaş ölkənin rəhbəri mətbuata bəyanatlarla çıxış ediblər.

Prezident İlham Əliyev səfər çərçivəsində Türkiyə Böyük Millət Məclisinin sabiq sədri İsmayıl Qəhrəman ilə də görüşüb.

### Londonda hasilatın pay bölgüsü haqqında imzalanan yeni saziş

Aprelin 26-da Prezident İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına səfər edib. Bu ölkənin Baş naziri Tereza Mey görüş zamanı cənab İlham Əliyevi Prezident seçilməsi münasibəti ilə təbrik edib və iki ölkə arasındakı əlaqələrin bundan sonra daha da genişlənəcəyini vurğulayıb. Səfər zamanı Prezident İlham Əliyevin və Baş nazir Tereza Meyin iştirakı ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR, “BP Exploration (Azerbaijan) Limited” şirkəti və SOCAR-ın Ortaq Neft Şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda D230 perspektiv blokunun birgə kəşfiyyatı və işlənilməsi üzrə hasilatın pay bölgüsü haqqında saziş imzalanıb.

Ardı 4-cü səh.

# Bakıda həyata keçirilən böyük quruculuq və abadlıq işləri Fransanın sabiq prezidentində dərin təəssürat yaradıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 15-də ölkəmizdə səfərdə olan Fransa Respublikasının sabiq prezidenti Nikola Sarkozi ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Nikola Sarkozi bir neçə il bundan əvvəl Azərbaycana səfərindən ötən dövr ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə Bakıda həyata keçirilən böyük quruculuq və abadlıq işlərinin şahidi olduğunu dedi və bütün bu inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını qeyd etdi.

Prezident İlham Əliyev xoş sözlərə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı Nikola Sarkozinin 2007-2012-ci illərdə Fransanın prezidenti olduğu dövrdə Azərbaycan-Fransa münasibətlərinin möhkəmləndiyi vurğulanıb, bir çox sahələrdə əlaqələrimizin böyük inkişaf yolu keçdiyi qeyd edilib. Azərbaycan Prezidenti və Nikola Sarkozi öz aralarında keçirilən görüşləri məmnunluqla xatırlayıblar. Qeyd olunub ki, həmin dövrdə təhsil sahəsində əməkdaşlığın yeni çərçivələri məhz Prezident İlham Əliyev və Nikola Sarkozinin birgə səyləri nəticəsində mümkün olub. Bakıda hər iki prezidentin iştirakı ilə Fransız liseyinin təməlinin qoyulması əlamətdar hadisə kimi dəyərləndirilib. Həmin illərdə yüksəksəviyyəli siyasi əlaqələrin möhkəmlənməsi nəticəsində bir çox fransız şirkətləri Azərbaycanda fəaliyyətə başlayıb və ya öz fəaliyyətini genişləndiriblər.

Nikola Sarkozi ona göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib. Prezident İlham Əliyev, öz növbəsində, Nikola Sarkozini yenidən Azərbaycanda görməyindən məmnun olduğunu ifadə edib.

# Ən islahatçı Prezident

## İlham Əliyevin yeni struktur islahatları effektiv və daha çevik dövlət idarəetmə aparatının formalaşdırılmasına xidmət edir

**“...İndi struktur islahatı gözlənilir. Çünki indi idarəetmədə struktur köhnəlib. Yeni idarəetmə strukturu olmalıdır - daha çevik, daha yığcam, daha məqsədyönlü. Çünki illər boyu yeni qurumlar yaranır. Onlar yarananda o qədər də hiss olunmur. Biri orada, biri burada yarandı, bir agentlik, bir xidmət yarandı. Sonra da baxanda görürük ki, bizim idarəetmə strukturumuz böyük dərəcədə şişirdilib. İndi dünyada əks proses gedir - idarəetmə daha yığcam, çevik, daha da məqsədyönlü və az işçi ilə böyük iş görmək üçün. Amma bizdə idarəetmə sistemi şişir. Buna son qoyulmalıdır. Ona görə struktur islahatı, kadr islahatı aparılmalıdır. Hər bir sahədə o sahəyə rəhbərlik edən şəxslər mütləq maksimum səmərə ilə işləməlidirlər”.**

Bu fikirləri Prezident İlham Əliyev yanvarın 11-də, yəni 5 gün öncə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında səsləndirmişdi. Bundan 3 gün sonra, yanvarın 14-də dövlət başçısı struktur islahatları istiqamətində mühüm qərarlar qəbul etdi. İmzalanan müvafiq fərmanlara əsasən, bir neçə qurum ləğv olundu, bəzi təşkilatların isə fəaliyyətləri özünümaliyyələşdirmə prinsipi əsasında həyata keçirilməklə yenidən təşkil edilməlidir.

Göründüyü kimi, bir neçə gün öncə islahatların davam etdiriləcəyi, idarəetmənin daha çevik mərhələyə çatdırılacağı anonsunu verən Prezident İlham Əliyev ilin əvvəlindən struktur islahatlarına başladı.

### Daha çevik, operativ idarəçilik mexanizmi formalaşır

Bu gün Azərbaycan sürətli və hərtərəfli inkişaf edən ölkədir. Cənab İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan dünyada sayılıb-seçilən ölkəyə çevrilib.

Bununla yanaşı, Azərbaycanın dinamik inkişafı, iqtisadi və sosial sferada əsaslı pozitiv dəyişikliklərin həyata keçirilməsi, cəmiyyət həyatının bütün sahələrində yeniləşməsi dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsini, səmərəliliyin yüksəldilməsini, çevik və məqsədyönlü fəaliyyət göstərən yeni idarəetmə strukturunun formalaşdırılmasını zərurətə çevirib.

Əslində Azərbaycanda struktur islahatlarına 2015-ci ildən start verilib. Dövlət başçısının fərman və sərəncamlarına uyğun olaraq bir neçə dövlət qurumu ləğv edilib, bəziləri isə nazirliklərin tabeçiliyinə verilib. Qloballaşan dünyada müasir inkişaf tempi daha çevik struktura malik olan optimal idarəetmə tələb edir. Çünki məqsəd əldə edilən nailiyyətlərin davamlılığını təmin etməklə gələcək üçün daha səmərəli şərtlər formalaşdırmaqdır.

Ardı 3-cü səh.

# Cahana sığmayan Azərbaycan şairi

**Qüdrətli sənət nəhənglərinin bədii dühasından və idrakından doğan orta əsr Azərbaycan poeziyasının görkəmli yaradıcıları olan sənətkarlardan hər biri ədəbiyyatda tarixi mərhələyə imza atmış, konkret ədəbi istiqamətlərin ən görkəmli simalarına çevrilmişlər.**

Böyük sənət korifeyləri Nizami Gəncəvi, Əfzələddin Xaqani, Məhsəti Gəncəvi, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Saib Təbrizi və başqaları ədəbi fikrin inkişafındakı möhtəşəm xidmətləri ilə orta əsrlərdə Şərq dünyası miqyasını aşaraq, beynəlxalq aləmdə də əsl sənət ulduzları kimi parlamışlar. Bu sənətkarların adları ilə bağlı olan ədəbi məktəblər, poetik-üslubi istiqamətlər türk-müsəlman aləmində uzun əsrlər poeziyanın inkişafında aparıcı mövqeyə malik olmuşdur. Azərbaycan ədəbiyyatının dünya mədəniyyətinə bəxş etdiyi belə qüdrətli sənətkarların sırasında İmadəddin Nəsimi görkəmli yer tutur.

İmadəddin Nəsimi Ümumşərq miqyasında qüdrətli şair kimi tanınan və qəbul olunan böyük sənətkardır.

Nəsimi Azərbaycan hürufizm ədəbiyyatının görkəmli yaradıcısıdır.

İmadəddin Nəsimi dünya ədəbiyyatında sarsılmaz iradəsi və möhkəm əqidəsi ilə şəxsiyyətin bütövlüyünün və əzəmətinin nümunəsini göstərmiş nadir sənətkarlardan biridir.

Nəsimi böyük ədəbi məktəb yaratmışdır.

Seyid İmadəddin Nəsimi (1369-1417) görkəmli Azərbaycan şairi və mütəfəkkiridir. O, Azərbaycanın qədim elm və ədəbiyyat mərkəzlərindən biri olan Şamaxı şəhərində dünyaya gəlmişdir.



Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə görkəmli Azərbaycan şairi İmadəddin Nəsiminin 600 illik yubileyi təntənəli şəkildə qeyd olunmuşdu. 13 sentyabr 1973-cü il

Uşaqlıq və gənclik illəri burada keçən Seyid İmadəddin Nəsimi Şamaxıda mükəmməl mədrəsə təhsili almışdır. Bədii istedadı ilə diqqəti cəlb edən İmadəddin Nəsimi ilk şeirlərindən etibarən ədəbi mühitdə istedadlı cavan şair kimi qəbul olunmuşdur. Qardaşı Şah Xəndanın məzarının və türbəsinin Şamaxı qəbiristanlığında bu günə qədər yaxşı vəziyyətdə qalması və xalq tərəfindən ziyarət yeri kimi qəbul olunması İmadəddin Nəsiminin mənsub olduğu şəcərəyə Azərbaycan xalqının, yerli əhalinin bəslədiyi yüksək ehtiramı nümayiş etdirir. Müxtəlif ədəbiyyatlarda Nəsiminin doğum yerinə dair müəyyən ölkələr və şəhərlər barədə qeyd edilən versiyalar onun anadan olduğu yerə aid olmayıb, tərcümeyi-halının digər hadisələri, xüsusən hürufilik təriqətini yaymaq üçün etdiyi səfərlər, müvəqqəti məskunlaşdığı məkanlarla əlaqədardır. Belə ki, Nəsimi hürufizm ideyalarını yaymaq üçün Azərbaycan vilayətlərindən başqa həm də İranda, Türkiyədə, İraqda, Suriyada olmuş və geniş təbliğat işləri aparmışdır. Olduğu ölkələrdə Nəsiminin və hürufizmin əleyhdarları olduğu kimi, tərəfdarları da formalaşmışdır. Bütün çətinliklərə baxmayaraq, onlar ustadlarının adını və əqidəsini daim uca tutaraq yaşatmışlar.

Ardı 6-cı səh.



# İstirahət qışda da gözəldir

**Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında demişdir: “Keçən il ölkəmizə 2 milyon 850 min xarici vətəndaş gəlib. Bu, 6 faiz artım deməkdir. Aparılan hesablamalara görə, bu xarici qonaqlar ölkəmizdə 2 milyard dollar pul xərcləyiblər. Turizmin inkişafı ilə bağlı apardığımız siyasət, görürsünüz ki, ilk növbədə maliyyə sahəsində özünü büruzə verir. Həm ölkəmizi tanıdırıq, həm də pul qazanırıq”.**

Bu uğurlu göstəricidə qış turizminin də öz payı var. Son günlər qış ölkəmizin dağlıq ərazilərində qarlı günlər istisna olmaqla, o qədər də sərt və şaxtalı keçmir. Bunun özü də turistlər üçün əlverişli hava şəraiti hesab edilir.

Ardı 7-ci səh.

## Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1036; 2017, № 4, maddə 526, № 7, maddələr 1340, 1370, № 8, maddə 1521, № 12 (I kitab), maddə 2328; 2018, № 5, maddə 900, № 9, maddə 1825) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.1.5-ci yarımbənd ləğv edilsin;

1.2. 4.7-ci bəndə “istəyən şəxs,” sözlərindən sonra “Azərbaycan Respublikası Prezidentinin aktları ilə ayrı müddət nəzərdə tutulmayıbsa” sözləri əlavə edilsin;

1.3. aşağıdakı məzmunda 5.12-ci bənd əlavə edilsin:

“5.12. Müvəkkil bankın lisenziyası ləğv edildikdə və bununla əlaqədar ləğvetmə proseduruna məruz qaldıqda fondun idarə heyətinin qərarı əsasında ləğvediciyə nəzarət edən məhkəmə orqanı fondun vəsaiti hesabına ilkin maliyyələşdirilən kredit portfelini ləğvetməyə məruz qalmış bankdan digər müvəkkil banka keçirir. Bu zaman həmin kredit portfelinin təminatı kimi müvəkkil bankın xeyrinə ipoteka ilə yüklü edilmiş əmlak üzrə hüquqlar yeni müvəkkil banka ötürülür.”.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 yanvar 2019-cu il*

## Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2328; 2018, № 5, maddə 897, № 8, maddə 1690) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi”nin 4.4.7-ci yarımbəndi ləğv edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 yanvar 2019-cu il*

## “Azərbaycan İpoteka Fondu” Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 27 oktyabr tarixli 661 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan İpoteka Fondu” Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 27 oktyabr tarixli 661 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1133; 2016, № 6, maddə 1036; 2017, № 4, maddə 525, № 7, maddə 1339; № 11, maddə 2029, № 12 (I kitab), maddə 2329) 3-cü hissəsi və 4.7-ci bəndi ləğv edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 yanvar 2019-cu il*

## Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, aqrar sahədə göstərilən dövlət xidmətlərinin optimallaşdırılması və səmərəliliyinin artırılması, həmin dövlət xidmətlərinin daha az həcmdə resurs sərf edilməklə həyata keçirilməsi, dövlət vəsaitinə qənaət edilməklə bu sahədə inzibati idarəetmənin təkmilləşdirilməsi, xidmətlərin həyata keçirilməsində keyfiyyətə nəzarətin təşkili, şəffaflığın artırılması, innovativ həllərin tətbiqi, elektron xidmətlərə keçidin sürətləndirilməsi və vətəndaş məmnunluğunun artırılması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında olan Dövlət Fitosanitar Xidmətinin, Dövlət Baytarlıq Xidmətinin, Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidmətinin və Baş Dövlət Texniki Nəzarət Xidmətinin əsasında Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi (bundan sonra - Agentlik) yaradılsın.

2. Müəyyən edilsin ki:

2.1. Agentlik:

2.1.1. baytarlıq və fitosanitar xidmətlərinin təşkilini və idarə edilməsini, keyfiyyətinə nəzarəti həyata keçirir, bu sahədə dövlət aqrar inkişaf mərkəzlərinin (bundan sonra - DAİM) fəaliyyətini əlaqələndirir;

2.1.2. kənd təsərrüfatı texnikasının qeydiyyatını, texnikaya nəzarət fəaliyyətini və bu sahədə dövlət xidmətlərini DAİM vasitəsilə həyata keçirir;

2.1.3. aqrokimya, toxum və bioloji laboratoriyalar, sort sınaq məntəqələri, toxum sertifikatlaşma mərkəzlərində xidmətlərin təşkili və göstərilməsinə nəzarət edir;

2.1.4. bu fərmanın 1-ci hissəsində nəzərdə tutulan dövlət xidmətlərinin digər hüquq və vəzifələrini həyata keçirir;

2.2. Agentliyin Aparatının işçilərinin say həddi 85 nəfərdir.

3. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Baş Dövlət Texniki Nəzarət Xidmətinin regional bölmələrinin işçilərinin say həddində ştat vahidləri DAİM-ə verilsin.

4. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi:

4.1. Agentliyin əsasnaməsinin layihəsini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. regionlarda DAİM vasitəsilə göstəriləcək xidmətlərin siyahısını və həmin xidmətlərin reqlamentlərini üç ay müddətində təsdiq etsin;

4.3. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi bu fərmanın 1-ci hissəsində nəzərdə tutulan dövlət xidmətlərində işləyən dövlət qulluqçularına münasibətdə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 464 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət orqanları ləğv edilərsə və ya ştatlar ixtisara düşərsə, vəzifə maaşına və ixtisasa uyğun işə düzəlməkdə və ya dövlət orqanlarında tutduğu vəzifəyə uyğun vəzifə tutmaqda dövlət qulluqçusunun “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 21.1.6-cı maddəsində nəzərdə tutulmuş üstünlüyünün həyata keçirilməsi Qaydası”na uyğun olaraq tədbirlər görsünlər.

6. Agentliyin əsasnaməsi təsdiq edilənədək bu fərmanın 1-ci hissəsində nəzərdə tutulan dövlət xidmətləri öz fəaliyyətlərini davam etdirsinlər.

7. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

7.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

7.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

7.4. bu fərmanın 1-ci hissəsində nəzərdə tutulan dövlət xidmətlərinin balanslarındakı dövlət əmlakının Agentliyin əsasnaməsi təsdiq edildiyi gündən bir ay müddətində Agentliyin balansına verilməsini təmin etsin;

7.5. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

8. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 yanvar 2019-cu il*

## “Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 noyabr tarixli 1113 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 noyabr tarixli 1113 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1820; 2017, № 5, maddə 821, № 11, maddə 2006; 2018, № 2, maddə 181, № 6, maddə 1196) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4.4-cü bənddən “Cəmiyyət tərəfindən” sözləri çıxarılsın;

1.2. 6-cı bənddə “Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi” sözləri “Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin;

1.3. 6.3-cü bənddə “Cəmiyyətə” sözü “MİDA” Məhdud Məsuliyyətli Cəmiyyətinə” sözləri ilə əvəz edilsin;

1.4. 8.2-ci bənddə “Cəmiyyətlə” sözü “MİDA” Məhdud Məsuliyyətli Cəmiyyəti ilə” sözləri ilə əvəz edilsin;

1.5. aşağıdakı məzmunda 8.3-cü bənd əlavə edilsin:

“8.3. Bu fərmanın 1-ci hissəsi ilə təsdiq olunmuş qaydaya uyğun olaraq edilən müraciətlərin cavablandırılması, o cümlədən yaranan çətinliklərlə bağlı müraciətlər və onların aradan qaldırılması “ASAN xidmət” mərkəzləri vasitəsilə də həyata keçirilir.”;

1.6. 9.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

“9.3. Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaitinin bu fərmanın 1-ci hissəsi ilə təsdiq edilən qaydaya uyğun olaraq vətəndaşlar tərəfindən mənzillərin əldə edilməsinə yönəldilən hissəsini hər maliyyə ilinin əvvəlində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;”.

2. Həmin fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.1-ci bənddə “Cəmiyyətlə” sözü “MİDA” Məhdud Məsuliyyətli Cəmiyyəti ilə” sözləri ilə əvəz edilsin və həmin bənddən “Fərmanın 1-ci hissəsi ilə təsdiq olunmuş” sözləri çıxarılsın;

2.2. 1.2.1-ci yarımbənddə “Cəmiyyətinin” sözü “Cəmiyyəti” sözü ilə, “Cəmiyyətlə” sözü “MİDA” Məhdud Məsuliyyətli Cəmiyyəti ilə” sözləri ilə əvəz edilsin və həmin bənddən “Fərmanın 1-ci hissəsi ilə təsdiq olunmuş” sözləri çıxarılsın;

2.3. aşağıdakı məzmunda 1.2.4-1-ci və 1.2.9-1-ci yarımbəndlər əlavə edilsin:

“1.2.4-1. elektron kabinet verilmiş şəxs - bu qaydanın 5.5-ci bəndinə əsasən “Güzəştli mənzil” sistemində qeydiyyata alınaraq elektron kabineti yaradılmış Azərbaycan Respublikasının vətəndaşı;”;

“1.2.9-1. mənzil əldə edənin öz vəsaiti (bundan sonra - öz vəsaiti) - fondun vəsaiti hesabına verilən güzəştli ipoteka krediti istisna olmaqla digər vəsait (kredit hesabına cəlb etdiyi vəsait daxil olmaqla).”;

2.4. 1.2.5-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“1.2.5. ərizəçi - bu qaydanın 5.7-ci bəndinə əsasən “Güzəştli mənzil” sistemində güzəştli şərtlərlə əldə edilməli mənzili seçmiş elektron kabinet verilmiş şəxs;”;

2.5. 1.2.10-cu yarımbənd ləğv edilsin;

2.6. 3.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“3.1. Bu qaydaya uyğun olaraq mənzil güzəştli qiymətlə, ipoteka kreditinin verilməsi qaydasına uyğun olaraq ilkin razılıq qərarı əsasında ipoteka krediti hesabına və ya ərizəçinin öz vəsaiti, yaxud kredit təşkilatından cəlb etdiyi kredit hesabına əldə edilir.”;

2.7. 3.2-ci bənddə “Agentlik (onun kollegial orqanı) mənzilin orta bazar qiymətindən aşağı” sözləri “Agentliyin İdarə Heyəti” sözləri ilə əvəz edilsin;

2.8. aşağıdakı məzmunda 3.5-ci bənd əlavə edilsin:

“3.5. Mənzillər satışa çıxarılarkən onların elektron kabinet verilmiş şəxslər tərəfindən ipoteka kreditindən istifadə etməklə və öz vəsaiti hesabına, yaxud yalnız öz vəsaiti hesabına əldə etməsi bu qaydanın 4-cü hissəsində nəzərdə tutulan elanda göstərilməlidir. Satışa çıxarılan mənzillərin yalnız öz vəsaiti hesabına əldə edilməsini nəzərdə tutan elan iki dəfə və daha çox ardıcıl olaraq verilə bilməz.”;

2.9. 4.3.8-ci yarımbənddə “satışının” sözündən sonra “(“Güzəştli mənzil” sistemi vasitəsilə seçilməsinin)” sözləri əlavə edilsin;

2.10. 4.3.9-cu yarımbənddə nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 4.3.10-cu yarımbənd əlavə olunsun:

“4.3.10. satışa çıxarılan mənzillərin dəyərinin aşağıdakı ödəniş üsullarından biri:

1. ipoteka kreditindən istifadə etməklə və öz vəsaiti hesabına və ya;

2. öz vəsaiti hesabına.”;

2.11. aşağıdakı məzmunda 5.5-1-5.5-3-cü bəndlər əlavə edilsin:

“5.5-1. Mənzili ipoteka kreditindən istifadə etməklə, yaxud həm ipoteka krediti, həm də öz vəsaiti hesabına əldə etmək istəyən elektron kabinet verilmiş şəxs “Güzəştli mənzil” sistemi vasitəsilə “Elektron ipoteka” sisteminə yönəldilir və “Elektron ipoteka” sistemində onun qeydiyyatı yoxdursa, şəxs həmin sistemdə avtomatik qeydiyyata alınır. Bu barədə “Güzəştli mənzil” sistemi vasitəsilə şəxsin elektron kabinetində müvafiq bildiriş yerləşdirilir.

5.5-2. Elektron kabinet verilmiş şəxs bu qaydanın 5.5-1-ci bəndində nəzərdə tutulan bildiriş onun elektron kabinetində yerləşdirildikdən sonra ilkin razılıq qərarının alınması üçün agent banka müraciət etməli və ipoteka kreditinin verilməsi qaydası ilə müəyyən edilmiş sənədləri təqdim etməlidir. Belə müraciətə ipoteka kreditinin verilməsi qaydasına uyğun olaraq baxılır. Elektron kabinet verilmiş şəxs agent bankdan aldığı ilkin razılıq qərarını “Güzəştli mənzil” sistemindəki elektron kabinetində yerləşdirilməsini təmin etməlidir.

5.5-3. İlkin razılıq qərarı almış elektron kabinet verilmiş şəxs həmin qərarın verildiyi tarixdən bir il ərzində bu qaydaya uyğun olaraq mənzil əldə etmədikdə, lakin mənzili ipoteka kreditindən istifadə etməklə, yaxud həm ipoteka krediti, həm də öz vəsaiti hesabına əldə etmək istəyində olarsa yenidən ilkin razılıq barədə qərar almalı və həmin qərarı “Güzəştli mənzil” sistemindəki elektron kabinetində yerləşdirməlidir.”;

2.12. 5.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

“5.6. Elektron kabinet verilmiş şəxs “Güzəştli mənzil” sistemində barəsində elan verilmiş mənzili seçə bilər. Belə seçim zamanı mənzilin dəyərinin ipoteka krediti hesabına ödəniş üsulunu yalnız ipoteka kreditinin verilməsi qaydasına uyğun olaraq ilkin razılıq qərarı almış şəxs seçə bilər. Bu qaydanın 5.3.6-cı yarımbəndində göstərilmiş otaq sayı və 5.3.7-ci yarımbəndində göstərilmiş ödəniş üsulu elektron kabinet verilmiş şəxs tərəfindən satışa çıxarılan istənilən otaq sayı olan mənzilin və bu qaydada nəzərdə tutulan istənilən ödəniş üsulunun seçilməsini məhdudlaşdırmır.”;

2.13. 5.7-ci bənddə “Müraciət edən” sözləri “Elektron kabinet verilmiş” sözləri ilə əvəz edilsin və həmin bəndə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

“Elektron kabinet verilmiş şəxs barəsində elan verilən yalnız bir mənzili seçə bilər.”;

2.14. aşağıdakı məzmunda 5.7-1 - 5.7-3-cü bəndlər əlavə edilsin:

“5.7-1. Bu qaydanın 5.7-ci bəndinə uyğun olaraq seçilməsi imkanı məhdudlaşdırılmış mənzil bu qaydanın 4.3.8-ci yarımbəndində müəyyən edilmiş müddətdə həmin elan çərçivəsində mənzil seçməyən elektron kabinet verilmiş iki şəxs tərəfindən ardıcıl olaraq gözləmə qaydasında seçilə bilər. Elektron kabinet verilmiş şəxs bir elan çərçivəsində gözləmə qaydasında yalnız bir mənzili seçə bilər.

5.7-2. Ərizəçinin etdiyi mənzil seçiminin bu qaydanın 5.9-cu bəndinə əsasən ləğv edilməsi barədə onun elektron kabinetində müvafiq bildiriş yerləşdirildikdə gözləmə qaydasında həmin mənzili birinci sırada seçmiş elektron kabinet verilmiş şəxs ərizəçi statusunu əldə edir və onun həmin mənzili almaq hüququ yaranır. Bu barədə onun elektron kabinetində “Güzəştli mənzil” sistemi vasitəsilə müvafiq bildiriş yerləşdirilir.

5.7-3. Bu qaydanın 5.7-2-ci bəndinə əsasən ərizəçi statusu əldə etmiş şəxsin etdiyi mənzil seçiminin bu qaydanın 5.9-cu bəndinə əsasən ləğv edilməsi barədə onun elektron kabinetində müvafiq bildiriş yerləşdirildikdə gözləmə qaydasında həmin mənzili ikinci sırada seçmiş elektron kabinet verilmiş şəxs ərizəçi statusunu əldə edir və onun həmin mənzili almaq hüququ yaranır. Bu barədə onun elektron kabinetində “Güzəştli mənzil” sistemi vasitəsilə müvafiq bildiriş yerləşdirilir.”;

2.15. 5.8-ci bənddə “və ərizəçinin seçdiyi mənzili onun əldə etməsinin mümkün olub-olmaması məsələsinə baxılır” sözləri çıxarılsın;

2.16. 5.9-cu bənd aşağıdakı redaksiyada verilsin:

“5.9. Ərizə təmin edilmədikdə, ərizənin təmin edilməsi barədə qərar ləğv edildikdə, müqavilənin rəsmiləşdirilməsi üçün bu qaydanın 6.2-ci bəndi ilə müəyyən edilmiş müddətdə ərizəçi gəlmədikdə və ya ərizəçi mənzil almaqdan imtina etdikdə, həmin ərizəçinin etdiyi mənzil seçimi ləğv edilir və bu barədə onun elektron kabinetində müvafiq bildiriş yerləşdirilir. Belə halda bu qaydanın 5.7-2-ci və 5.7-3-cü bəndləri nəzərə alınmaqla mənzilin üzərinə qoyulmuş bu qaydanın 5.7-ci bəndində qeyd olunan məhdudiyyət götürülür və həmin mənzillər növbəti elanla satışa çıxarılır.”;

2.17. 6.3-cü və 6.4-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

“6.3. Mənzil seçimi zamanı onun dəyərinin ipoteka krediti hesabına ödəniş üsulunu seçmiş ərizəçinin elektron kabinetində mənzil barədə bu qaydanın 6.1-ci bəndinə uyğun olaraq bildiriş yerləşdirildikdən sonra ərizəçi ipoteka kreditinin verilməsi qaydasına uyğun olaraq seçdiyi mənzilin qiymətləndirilməsinin aparılması və ipoteka kreditinin verilməsinə razılıq barədə qərar alınması üçün on iş günü müddətində agent banka müraciət etməlidir. Belə müraciətə ipoteka kreditinin verilməsi qaydasına uyğun olaraq baxılır.

6.4. Mənzilin ipoteka kreditindən istifadə etməklə əldə edilməsini seçmiş ərizəçinin elektron kabinetində mənzil barədə bu qaydanın 6.1-ci bəndinə uyğun olaraq yerləşdirilən bildirişdə agent bankın ipoteka kreditinin verilməsinə razılıq barədə qərarı “Elektron ipoteka” sistemində yerləşdirildikdən sonra ərizəçinin və (və ya) həmin bankın tələbinə əsasən alqı-satqı və ipoteka müqaviləsinin rəsmiləşdirilməsi üçün notariatda iştirakın təmin edilməsi barədə cəmiyyətin öhdəliyi əks olunmalıdır.”;

2.18.6. 5.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

“6.5.3. ərizəçi bu qaydanın 6.1-ci bəndinə uyğun olaraq bildiriş yerləşdirildikdən sonra bu qaydanın 6.3-cü bəndində müəyyən olunan müddətdə seçdiyi mənzilin qiymətləndirilməsinin aparılması və ipoteka kreditinin verilməsinə razılıq barədə qərar alınması üçün agent banka müraciət etmədikdə və həmin müddətdə mənzili öz vəsaiti hesabına əldə etmək niyyətini “Güzəştli mənzil” sistemi vasitəsilə bildirmədikdə, ərizəçinin ipoteka kreditindən istifadə etməklə mənzil almaq üçün ərizəsi agent bank tərəfindən ipoteka kreditinin verilməsi qaydasına əsasən təmin edilmədikdə və ərizəçi mənzili öz vəsaiti hesabına əldə etmək niyyətini ipoteka kreditinin verilməsindən imtina edilməsi barədə qərar elektron kabinetində yerləşdirildiyi gündən 3 (üç) iş günü müddətində “Güzəştli mənzil” sistemi vasitəsilə bildirmədikdə.”.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Bu fərmanın 2-ci hissəsi 2019-cu il mayın 1-dən qüvvəyə minir. Bu fərmanın 2-ci hissəsi qüvvəyə minənədək “Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası”nda nəzərdə tutulan mənzilin orta bazar qiyməti kimi Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurası tərəfindən sonuncu təsdiq edilmiş qiymət nəzərdə tutulur.

5. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 yanvar 2019-cu il*

# Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətini optimallaşdırmaq, strukturunu və idarə edilməsini daha da təkmilləşdirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyindəki kitabxanalar ləğv edilsin.

2. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində yeni, mütərəqqi və ölkənin bütün ərazisini əhatə edəcək kitabxana sisteminin yaradılması, habelə mədəniyyət və təhsil xidmətləri göstərən qurumların (mədəniyyət mərkəzləri, klublar, musiqi məktəbləri, rəsm qalereyaları və s.) fəaliyyətində səmərəliliyin artırılması məqsədilə təkliflər hazırlanması üçün aşağıdakı tərkibdə Komissiya yaradılsın:

**Komissiyanın sədri**

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri

**Komissiya sədrinin müavini**

Azərbaycan Respublikasının mədəniyyət naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsi müdirinin müavini
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsi müdirinin müavini
Azərbaycan Respublikası maliyyə nazirinin müavini
Azərbaycan Respublikası təhsil nazirinin müavini
Bakı Şəhər İcra Hakimiyyətinin nümayəndəsi.

3. Bu fərmanın 2-ci hissəsinə əsasən yaradılan Komissiya (bundan sonra - Komissiya) beynəlxalq təcrübəni nəzərə almaqla, aşağıdakılarla bağlı təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

3.1. informasiya-kommunikasiya texnologiyalarının imkanları, habelə mövcud tələbat nəzərə alınmaqla, ölkədə kitabxana sisteminin yenidən qurulması;

3.2. dövlət mülkiyyətində olan muzeylərin inventarizasiyasını apararaq, onların fəaliyyətinin optimallaşdırılması və daha təkmil muzey fəaliyyətinin təşkili;

3.3. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyindəki musiqi məktəblərinin inventarizasiyasını aparmaqla onların fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə inzibati-ərazi vahidləri üzrə daha kompakt təşkili;

3.4. mədəniyyət mərkəzlərinin, mədəniyyət evlərinin və klubların, rəsm qalereyalarının inventarizasiyasını aparmaqla onların fəaliyyətinin təkmilləşdirilməsi, mövcud tələbat nəzərə alınmaqla ölkənin inzibati ərazi vahidləri üzrə daha kompakt təşkili və xidmət səviyyəsinin yüksəldilməsi.

4. Bu fərmanın 3.1-ci bəndinə əsasən təqdim olunacaq təkliflər əsasında ölkədə yeni kitabxana sistemi formalaşanadək Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyindəki mövcud kitabxanalar öz fəaliyyətini davam etdirsinlər.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyəti Komissiyada təmsil olunacaq nümayəndələri barədə təkliflərini on gün müddətində hazırlayıb Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim etsinlər.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

6.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.4. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyindəki Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzin ləğvinin təmin edilməsi ilə bağlı bir ay müddətində tədbirlər görsün.

7. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi:

7.1. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.2. bu fərmana əsasən ləğv olunan qurumlarında işləyən işçilərin nazirliyin tabeliyində olan digər qurumlarda müvafiq vakant vəzifələrə təyin edilməsi ilə bağlı tədbirlər görsün və nəticəsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

8. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 yanvar 2019-cu il*

# A.N.Alışanovun "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Arif Nizam oğlu Alışanov "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilsin.

2. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 yanvar 2019-cu il*

# G.Q.İsmayılzadənin Azərbaycan Respublikasının Yaponiyada fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Gürsel Qüdrət oğlu İsmayılzadə Azərbaycan Respublikasının Yaponiyada fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 yanvar 2019-cu il*

# Ən islahatçı Prezident

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyevin həyata keçirdiyi struktur islahatları məhz idarəetmə sisteminin təkmilləşməsinə xidmət edir. Bu islahatlar nəticəsində idarəetmə sistemindəki paralelliyin və təkrarlığın aradan qaldırılması, dinamik, mobil, daha çevik, operativ idarəçilik mexanizminin formalaşması həyata keçirilir.

### İdarəetmə və iqtisadi inkişaf arasında tarazlıq

Azərbaycan Prezidentinin güclü siyasi iradəsi və davamlı dəstəyi sayəsində ölkədə aparılan kompleks islahatlar ölkəmizin ötən il də yeni rekorda imza atmasına imkan yaratdı. Dünyada ən vacib və etibarlı reytinq göstəricisi hesab olunan Dünya Bankının "Doing Business-2019" hesabatı İlham Əliyevi ən islahatçı Prezident kimi dəyərləndirdi. Çünki hesabata əsasən Azərbaycan dünyanın 10 islahatçı dövləti siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. Göründüyü kimi, İlham Əliyevin apardığı kompleks islahatlar ölkəmizə "dünyada ən islahatçı" ölkə imici qazandırmaqla yanaşı, davamlı və tarazlaşdırılmış iqtisadi inkişafı təmin edib.

Ümumiyyətlə, struktur islahatları dövlət idarəetməsini iqtisadi inkişafın yeni mərhələsinə uyğunlaşdırır. İdarəetmə və iqtisadi inkişaf arasında tarazlıq, qarşılıqlı əlaqə və bir-birini tamamlama kimi prinsiplər qorunur. Həyata keçirilən struktur dəyişiklikləri eyni zamanda dövlət idarəçiliyinin təkmilləşdirilməsini, dövlət xidmətlərinin optimallaşdırılması və səmərəliliyinin artırılmasını nəzərdə tutur. Yəni Prezidentin rəhbərliyi ilə aparılan struktur islahatlarının əsas məqsədi idarəetmədə çevikliyi və səmərəliliyi artırmaq, cəmiyyətdə formalaşan yeni çağırışlara və iqtisadiyyatda baş verən struktur dəyişikliklərinə adekvat uyğunlaşmanı təmin etməkdir.

### Büdcə vəsaitinə qənaət

Cənab Prezidentin apardığı struktur islahatları səmərəliliyin daha da artırılmasına xidmət edir. Məhz səmərəli dövlət idarəetmə aparatı cənab Prezidentin tapşırıqlarına uyğun olaraq məhdud resurslardan istifadə etməklə maksimum nəticə əldə edə bilər. Struktur islahatları institusional və tənzimləyici çərçivəni iqtisadiyyatın tarazlı inkişafına xidmətə yönəldir.

Dövlət aparatının optimallaşması, paralel strukturların aradan qaldırılması və mövcud strukturların yenidən təşkili büdcə vəsaitinə qənaət deməkdir. Dövlətin apardığı struktur islahatları həm biznesə, həm də ictimaiyyətə idarəetmənin səmərəliliyinin artırılması ilə bağlı yaxşı bir nümunədir.

Struktur islahatların gətirəcəyi faydalardan biri də ölkədə biznes mühitinin daha da təkmilləşdirilməsindən və rəqabətin gücləndirilməsindən ibarətdir. Çünki yığcam və məqsədyönlü dövlət aparatı özəl sektorun fəaliyyətinə müdaxiləni minimuma endirməklə daha çox bazar tənzimlənməsinə şərait yaradır. Beləliklə, dövlət və bazar tənzimlənməsinin optimal nisbəti müəyyənləşir ki, bu da özəl sektorun lokomotiv olduğu iqtisadi inkişafı təmin edir.

Struktur islahatları xüsusilə "Azərsilah" Açıq Səhmdar Cəmiyyəti və Aqrar Xidmətlər Agentliyi ölkədə aparılan diversifikasiya siyasətinə xidmət göstərməklə iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasını, qeyri-neft ixracının genişlənməsini, idxalın əvəzlənməsini, ərzaq təhlükəsizliyinin gücləndirilməsini və ordunun hərbi-texniki təchizatında kəmiyyət və keyfiyyət göstəricilərinin daxili istehsal hesabına yüksəldilməsini təmin edəcək.

### İslahatlar zamanı iş yerləri ilə təminat diqqətdə saxlanılıb

Əlbəttə ki, struktur islahatları nəticəsində vətəndaşlara şəffaf, operativ və resurslara qənaət etməklə xidmət göstəriləcək, dövlət xidmətləri daha əlçatan və keyfiyyətli olacaq. "Bir pəncərə" və rəqəmsallaşma kimi prinsiplər struktur islahatları boyunca keçən əsas xətdir.

Struktur islahatları zamanı iş yerləri ilə təminat məsələsi diqqətdə saxlanılıb. Müvafiq qurumlar və Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi bu sahədə cənab Prezidentdən xüsusi tapşırıqlar alıb. Bu isə o deməkdir ki, fəaliyyəti dayandırılmış strukturların əməkdaşları üçün yenidən işlə təmin olunmaq imkanları maksimum təmin ediləcəkdir.

### Azərbaycanın dünya iqtisadiyyatında mövqeləri daim möhkəmlənir

Struktur islahatları "yaxşı idarəetmə" və "açıq hökumət" prinsiplərinə uyğun olmaqla dövlət idarəetməsinin dünya standartlarına uyğunlaşdırılmasını təmin edir.

Davos İqtisadi Forumunun "Qlobal Rəqabətlilik - 2019" hesabatına əsasən, Azərbaycan 140 ölkə arasında "Dövlət tənzimlənməsinin yükü" alt-indikatoru üzrə əvvəlki illə müqayisədə 3 pillə irəliləyərək 12-ci yerdə qərarlaşıb və Avstriya, Belçika və Danimarka kimi ölkələri geridə qoyub. Təkcə bu fakt göstərir ki, cənab İlham Əliyevin rəhbərliyi altında ölkədə effektiv dövlət idarəetmə aparatı formalaşıb.

Bu islahatlar nəticə etibarilə məhsuldarlığın artırılması, ölkəyə daha çox investisiya cəlbi və yeni iş yerlərinin açılması deməkdir.

İlham Əliyevin həyata keçirdiyi siyasət biznes mühitinin təkmilləşməsini, infrastruktur və insan kapitalının inkişafını, Azərbaycanın dünya iqtisadiyyatında mövqelərinin güclənməsini təmin edir.

Bir sözlə, Azərbaycan özünün müstəqilliyi dövründə hər zaman dövlətçiliyin möhkəmləndirilməsi, idarəetmənin təkmilləşdirilməsi üçün daim islahatlar aparıb və günün tələblərinə cavab verən sistem yaratmağa çalışıb. Struktur islahatları ilə bağlı Prezident İlham Əliyevin qəbul etdiyi qərarlar bir daha göstərir ki, Azərbaycanda çevik idarəetmə sisteminə böyük maraq var və dövlət başçısı bu siyasəti davam etdirəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Nazirlər Kabineti Aparatının növbəti iclası olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda qaldırılan məsələlərlə əlaqədar Nazirlər Kabineti Aparatının növbəti iclası keçirilib.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Novruz Məmmədov 2018-ci ildə ölkəmizin əldə etdiyi uğurlu nəticələrdən, aparılan iqtisadi islahatlardan, yeniliklərdən bəhs edib və iclas zamanı Prezident İlham Əliyevin qeyd etdiyi istiqamət və hədəflərin hökumət üçün əsas meyar olduğunu bildirib. Ötən ildə atılan addımlar iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılması baxımından ölkəmizin dünya miqyasında reytinqinin yüksəlməsinə səbəb olub. Xüsusən də vergi və gömrük sahələrində institusional dəyişikliklər, şəffaflıq və sağlamlaşdırma tədbirləri müsbət nəticələr verib. Əhalinin aztəminatlı hissəsinin, şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin, məcburi köçkünlərin sosial problemləri daim dövlətin diqqət mərkəzindədir.

İlin mühüm hadisələri olan "Azerspace-2" peykinin orbitə çıxarılması, "Cənub qaz dəhlizi"nin, TANAP qaz kəmərinin, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının, Türkiyədə ən böyük layihələrdən olan "Star" neft emalı zavodunun açılışları, Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın imzalanması dövlət başçısının apardığı məqsədyönlü siyasətin əməli nəticələridir.

Baş nazir vurğulayıb ki, 2019-cu ildə də ölkəmizdə mühüm işlərin həyata keçirilməsi, idarəetmədə yeni yanaşmanın tətbiq olunması nəzərdə tutulub. Bu il yeni Sumqayıt-Rusiya sərhədi yolunun inşası, həmçinin 100-dən çox məktəb binasının tikintisi, 10-a yaxın mərkəzi rayon xəstəxanasının, üç olimpiya idman kompleksinin, beş "ASAN xidmət" mərkəzinin, Bakı şəhərində "DOST" mərkəzlərinin istifadəyə verilməsi nəzərdə tutulur.

Aqrar sahənin inkişafına nəzər salan Baş nazir Novruz Məmmədov ötən ildə aparılmış meliorativ tədbirlər nəticəsində əkin dövriyyəsinə cəlb olunmuş torpaqların səmərəli istifadə edilməsi ilə bağlı tədbirlər barədə də danışıb.

Sonda sosial-iqtisadi inkişafın nəticələrinə dair fikir mübadiləsi aparılıb, Prezident İlham Əliyevin iclasda verdiyi tapşırıqların icrası ilə əlaqədar hökumət tərəfindən həyata keçirilməsi nəzərdə tutulan tədbirlərlə bağlı Nazirlər Kabineti Aparatının aidiyyəti şöbələrinə müvafiq göstərişlər verilib.

# Əlahiddə Çevik Polis Alayında əməliyyat müşavirəsi keçirilib





Yanvarın 15-də Əlahiddə Çevik Polis Alayında 2018-ci il ərzində görülmüş işlərin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə çıxış edən daxili işlər naziri, general-polkovnik Ramil Usubov əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş inkişaf və tərəqqi strategiyasının Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə böyük əzmlə davam etdirildiyini, ölkəmizdə mövcud olan sabitlik və təhlükəsizlik şəraitinin daha da möhkəmləndiyini, ictimai asayişin ötən ildə də etibarlı qorunduğunu vurğulayıb, görülən işlərdə, əldə edilən müsbət nəticələrdə Əlahiddə Çevik Polis Alayının şəxsi heyətinin də böyük əməyi olduğunu diqqətə çatdırıb.

Sonra alay komandirinin birinci müavini - qərargah rəisi, polis polkovniki Elnur Kərimov hesabat dövründə görülmüş işlər və qarşıda duran vəzifələr barədə məruzə ilə çıxış edib. O qeyd edib ki, ötən il nazirliyin aidiyyəti struktur qurumları və ərazi polis orqanları ilə qarşılıqlı əlaqədə alayın patrul bölüklərinin xidmət apardığı ərazilərdə kriminogen durum bütövlükdə nəzarətdə saxlanılıb, cinayətlərin və digər hüquqpozmaların aşkarlanması və qarşısının alınması üçün paytaxtın polis orqanları ilə birgə zəruri tədbirlər görülüb. Nəticədə post və marşrutlarda 32 min 81 nəfər, o cümlədən müxtəlif cinayətlər törətmiş 834, inzibati xətalara yol vermiş 31 min 247 şəxs saxlanılaraq barələrində qanunauyğun ölçülərin götürülməsi təmin edilib. Hüquqazidd əməllərə yol verdiklərinə görə saxlanılanlardan 214-ü xuliqanlıq, 247-si oğurluq, 15-i soyğunçuluq, 52-si dələduzluq, 44-ü digər cinayətlər törətmiş şəxslər olub. Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri çərçivəsində alayın şəxsi heyəti tərəfindən ümumilikdə 133 nəfər saxlanılıb. Bununla bərabər, xırda xuliqanlığa görə 1298, avaralıq və dilənçiliyə görə 3199, polisin qanuni tələbinə tabe olmadığına görə 668, qanunsuz küçə ticarəti ilə məşğul olduğuna görə 4925, məişət səs-küyünə yol verən 888 nəfər müəyyən edilərək barələrində zəruri tədbirlər görülüb. Bütövlükdə 2017-ci illə müqayisədə aşkarlanan cinayətlərin sayı 1,5, inzibati xətaların sayı isə 21,3 faiz çox olub.

Məruzə ətrafında çıxış edənlər görülən işlərin nəticələrindən, xidməti fəaliyyətdə yol verilən nöqsan və çatışmazlıqlardan, onların qısa müddətdə aradan qaldırılması istiqamətində həyata keçiriləcək tədbirlərdən danışıblar.

Müşavirəyə yekun vuran general-polkovnik Ramil Usubov şəxsi heyətin ötənilki fəaliyyətinin yekunlarını yüksək qiymətləndirib, bu dövrdə xidməti-döyüş fəaliyyətində əldə olunmuş müsbət nəticələrin qorunub saxlanılmasının əhəmiyyətini qeyd edib, tapşırıq və tövsiyələrini verib. Kütləvi tədbirlər zamanı təhlükəsizliyin təmin edilməsində alayın böyük təcrübə qazandığını deyən nazir cari ildə "Formula-1" Azərbaycan Qran-Prisi, futbol üzrə UEFA Avropa Liqasının final görüşü, Avropa Gənclər Olimpiya Festivalı kimi beynəlxalq əhəmiyyətli idman tədbirlərinin keçiriləcəyi ilə əlaqədar qarşıya qoyulan vəzifələrin yüksək səviyyədə icra edilməsinin, qüvvə və vasitələrin tədbirlər ərəfəsində tam hazırlıq vəziyyətinə gətirilməsinin, həmçinin peşəkarlığın artırılması məqsədilə müvafiq təlim-məşqlərin keçirilməsinin əhəmiyyətini qeyd edib.

Xidməti vəzifələrin uğurla yerinə yetirilməsi üçün ölkə rəhbərliyi tərəfindən hər cür şəraitin yaradıldığını, şəxsi heyətin hərtərəfli dövlət qayğısı ilə əhatə olunduğunu nəzərə çatdıran daxili işlər naziri Azərbaycan Prezidenti İlham Əliyevi əmin edib ki, Əlahiddə Çevik Polis Alayı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmini, cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması üzrə vəzifələri, qarşıya qoyulan bütün tapşırıqları bundan sonra da əzmlə yerinə yetirəcək, göstərilən etimadı sədaqətli xidməti ilə doğruldacaq.

Müşavirənin sonunda ötən il xidməti vəzifələrin icrasında fərqlənmiş bir qrup əməkdaşın təltif olunması barədə daxili işlər nazirinin müvafiq əmrləri elan olunub və general-polkovnik Ramil Usubov mükafatları sahiblərinə təqdim edib.

# Dubayda Azərbaycan Ticarət Evi açılıb

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, ölkəmizdə istehsal olunan məhsulların ixracının təşviqi və genişləndirilməsi, "Made in Azerbaijan" brendinin xarici ölkələrdə tanıdılması, satışının təşkili və əlaqələndirilməsi məqsədilə xarici ölkələrdə ticarət evlərinin yaradılması prosesi davam etdirilir.






AZƏRTAC xəbər verir ki, yanvarın 15-də Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay şəhərində yerləşən məşhur "The Mall" Ticarət Mərkəzində Azərbaycan Ticarət Evi açılıb. İqtisadiyyat Nazirliyi tərəfindən yaradılmış Azərbaycan Ticarət Evi "Made in Azerbaijan" brendinin BƏƏ bazarında daha çox tanıdılmasına, Azərbaycan məhsullarının ixracının təşviqi və genişləndirilməsinə dəstək göstərəcək, yerli məhsullarımızın bu ölkədə satışını təşkil edəcək, sahibkarlar arasında bu sahədə əlaqələndirməni həyata keçirəcək.

Ticarət Evində Azərbaycan şirkətlərinin müxtəlif növ məhsullarının sərgisi təşkil olunub. Daimi fəaliyyət göstərəcək sərgidə 33 Azərbaycan şirkətinin istehsal etdiyi 600-dən çox məhsul, o cümlədən meyvə və tərəvəzlər, quru meyvələr, fındıq, çay, mürəbbə, meyvə şirələri, mineral sular, limonadlar, konserv məhsulları, bitki yağları, süd və süd məhsulları, qənnadı məmulatları, kosmetik məhsullar və sair nümayiş etdirilir. Ticarət Evində Azərbaycanın zəngin mətbəxini təqdim edən restoran da fəaliyyət göstərir.

Azərbaycan Ticarət Evinin fəaliyyətə başlaması ilə əlaqədar keçirilən tədbirdə iqtisadiyyat naziri Şahin Mustafayevin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti, BƏƏ-nin rəsmi şəxsləri və iş adamları iştirak edib.

Ş.Mustafayev BƏƏ-də Azərbaycan Ticarət Evinin açılmasının dövlət başçılarının ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin inkişafına verdikləri böyük önəmin, Birləşmiş Ərəb Əmirliklərində Azərbaycan məhsullarına olan marağın göstəricisi olduğunu vurğulayıb. Bildirib ki, qarşılıqlı hörmət və dostluq prinsiplərinə əsaslanan Azərbaycan-BƏƏ əlaqələri uğurla inkişaf edir.

Nazir qeyd edib ki, Azərbaycanın xarici ölkələr üzrə ilk ticarət nümayəndələrindən biri də məhz Birləşmiş Ərəb Əmirliklərinə təyin edilib, 2017-ci və 2018-ci illərdə Dubay, Əbu-Dabi və Şarca şəhərlərinə ixrac missiyaları təşkil olunub: "Hazırda Azərbaycanda sənaye, tikinti, ticarət, kənd təsərrüfatı, rabitə, nəqliyyat, xidmət sahələrində 290 BƏƏ şirkəti fəaliyyət göstərir. İndiyədək Azərbaycanla BƏƏ arasında müxtəlif sahələrdə əməkdaşlığa dair 30-dan çox sənəd imzalanıb".

Azərbaycan və BƏƏ arasında ticarət əlaqələrinin inkişafını vurğulayan Ş.Mustafayev deyib ki, ötən ilin 11 ayında 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə ölkələrimiz arasında ticarət dövriyyəsi 51 faiz, ixrac 31 faiz artıb. Ölkələrimiz investisiya qoyuluşu sahəsində də uğurlu əməkdaşlıq edir. İndiyədək BƏƏ Azərbaycana 2,1 milyard dollar, Azərbaycan isə BƏƏ-yə 330 milyon dollar investisiya yatırıb.

Nazir diqqətə çatdırıb ki, "ASAN Viza" sisteminin tətbiqi Azərbaycana turist səfərlərinin təşkilini asanlaşdırıb. 2018-ci ilin yanvar-noyabr aylarında BƏƏ-dən Azərbaycana gələn turistlərin sayı 2017-ci ilin ötən dövrü ilə müqayisədə 13 faiz artıb. Ötən il Azərbaycan Turizm Bürosunun Birləşmiş Ərəb Əmirliklərində xarici turizm nümayəndəliyi açılıb: "Dubayda Azərbaycan Ticarət Evinin açılması iki ölkə arasında iqtisadi əməkdaşlığın inkişafına, işgüzar dairələr arasında əlaqələrin genişləndirilməsinə öz töhfəsini verəcək".

Birləşmiş Ərəb Əmirliklərinin iqtisadiyyat naziri Sultan Bin Saeed Al Mansoori Dubayda Azərbaycan Ticarət Evinin fəaliyyətə başlamasının ikitərəfli iqtisadi əlaqələrin inkişafında mühüm addım olduğunu, ölkələrimiz arasında iqtisadi əməkdaşlığın və işgüzar münasibətlərin inkişafında əhəmiyyətini vurğulayıb, qarşılıqlı iqtisadi əlaqələrin genişləndirilməsi istiqamətlərinə dair fikirlərini bölüşüb.

Sonra tədbir iştirakçıları Azərbaycan Ticarət Evi və burada daimi fəaliyyət göstərən Azərbaycan məhsullarının sərgisi ilə tanış olublar.

BƏƏ-də açılan Azərbaycan Ticarət Evı ölkəmizin xaricdə yaradılmış sayca 7-ci ticarət evidir.

Həmçinin Birləşmiş Ərəb Əmirliklərində Azərbaycanın Ticarət Nümayəndəliyinin ofisi açılıb. İqtisadiyyat naziri Ş.Mustafayevin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti və BƏƏ rəsmiləri Ticarət Nümayəndəliyinin ofisi ilə tanış olublar.






# 16 xarici səfər, 12 prezidentlə görüş

## Prezident İlham Əliyevin ötənilki xarici səfərləri Azərbaycana mühüm diplomatik nailiyyətlər qazandırıb













*Əvvəli 1-ci səh.*

Dövlət başçısı səfər çərçivəsində həmçinin Böyük Britaniyanın ticarət və ixracın təşviqi üzrə dövlət naziri, hökumətlərarası komissiyanın həmsədri Baronessa Rona Feyrhed, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Avropa və Amerika məsələləri üzrə dövlət naziri Alan Dunkan, BP şirkətinin baş icraçı direktoru Robert Dadli və Britaniya parlamentinin bir qrup üzvü ilə görüşlər keçirib.

### Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürü

İyun ayının 12-də Türkiyədə TANAP kəmərinin istifadəyə verilməsi mərasimi keçirilib. Mərasimdə iştirak etmək üçün Türkiyəyə səfər edən Prezident İlham Əliyev Əskişəhərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, həmçinin Ukrayna Prezidenti Petro Poroşenko, BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşüb.

Həmin gün Əskişəhər şəhərində TANAP qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasimdə çıxış edən Azərbaycan Prezidenti bildirib ki, TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının təzahürüdür. Bu layihə Türkiyə ilə Azərbaycanın növbəti zəfəridir: “Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir, bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür. TANAP kimi nəhəng layihənin həyata keçirilməsi Türkiyə-Azərbaycan liderlərinin birgə güclü siyasi iradəsi nəticəsində mümkün olmuşdur”.

### Rusiya-Azərbaycan münasibətləri yeni inkişaf mərhələsindədir

Elə həmin gün Azərbaycan Prezidenti Türkiyədən Rusiya Federasiyasına işgüzar səfər edib. Prezident İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşüb.

Rusiya Prezidenti vurğulayıb ki, iki ölkə arasında münasibətlər yeni inkişaf mərhələsindədir və çox uğurla inkişaf edir. Ötən il ərzində əmtəə dövriyyəsinin artımı 34,4 faiz, bu ilin birinci rübü ərzində isə daha 19 faizə yaxın olub. Yəni, bu, çox yaxşı artım tempidir və bu proses dəstəklənməlidir: “Siyasi məsələlərə gəlincə, burada da vəziyyət sabitdir. Parlamentlərin, ictimai təşkilatların xətti ilə daim əlaqə saxlanılır, humanitar əlaqələr inkişaf edir” - deyə Vladimr Putin vurğulayıb.

Görüşdə həmçinin bəlli oldu ki, Rusiya tərəfi Azərbaycan Prezidentinin avqustun 30-da bu ölkəyə səfəri ilə bağlı hazırlıqlar görür. Bu səfər çərçivəsində münasibətlər hərtərəfli və dərindən müzakirə ediləcək və çox güman ki, yeni sazişlər də imzalanacaq.

Rusiyada səfərdə olan dövlət başçısı iyunun 14-də Moskvadakı “Lujniki” stadionunda futbol üzrə növbəti dünya çempionatının təntənəli açılış mərasimində iştirak edib.

### Avropa İttifaqı ilə “Tərəfdaşlıq prioritetləri” paraflandı

Müstəqil siyasət yürüdən Azərbaycan həm də beynəlxalq təşkilatlarla yüksək səviyyəli tərəfdaşlıq edir. İyulun 10-da Prezident İlham Əliyev NATO-nun baş katibi Yens Stoltenberqin dəvəti ilə NATO-nun zirvə toplantısında iştirak etmək üçün Belçika Krallığının paytaxtı Brüsselə səfəri də bunu bir daha təsdiqləyir.

Bu səfər çərçivəsində Azərbaycan Prezidenti çox mühüm görüşlər keçirdi və bu görüşlər Avropa İttifaqı ilə Azərbaycan arasında yeni sazişin imzalanmasına mühüm töhfə verdi. Öncə Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskla görüşən dövlət başçısı ikitərəfli əməkdaşlığın daha da gücləndiyini bildirib və qeyd edib ki, Azərbaycan qurumun əksər üzv dövlətləri ilə strateji tərəfdaşlıq sazişi imzalayıb.

Görüşdən sonra “Tərəfdaşlıq prioritetləri” sənədinin paraflanma mərasimi oldu. Bu sənədin Azərbaycan-Avropa İttifaqı tərəfdaşlıq əlaqələrinin gələcək inkişafı üçün yeni imkanlar açacağını müəyyənləşdirdi. “Tərəfdaşlıq prioritetləri” 2018-2020-ci illəri əhatə edir və tərəfdaşlığın bərabərhüquqlu, qarşılıqlı xarakter daşıdığını özündə əks etdirir. Bu sənəd Avropa İttifaqı və Azərbaycan arasında ikitərəfli gündəliyə yeni təkan vermiş oldu.

### Azərbaycan-NATO əlaqələri yüksələn xətlə inkişaf edir

İyulun 12-də dövlət başçısı Brüsseldə NATO-nun müttəfiq və tərəfdaş ölkələrinin dövlət və hökumət başçıları üçün təşkil olunan qəbulda iştirak edib. NATO-nun Əfqanıstanda həyata keçirdiyi əməliyyata töhfə verən tərəfdaş ölkələrin dövlət və hökumət başçılarının və potensial əməliyyat tərəfdaşlarının iştirakı ilə Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündə isə İlham Əliyev Azərbaycanın Əfqanıstana göstərdiyi dəstəyi, həmçinin Ermənistanın təcavüzkar siyasəti ilə bağlı əsl həqiqətləri bu ali tribunadan bir daha dünyaya bəyan edib.

Brüssel səfəri çərçivəsində Prezident İlham Əliyevlə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaninin görüşü olub. Dövlət başçısı həmçinin BMT baş katibinin siyasi məsələlər üzrə müavini Rozmari Dikarlo ilə də danışıqlar aparıb.

### Fransaya 13-cü səfər

İyul ayının 19-da dövlətimizin başçısı Fransa Prezidenti Emmanuel Makronun dəvəti ilə bu ölkəyə səfər edib. Prezident İlham Əliyev bir sıra önəmli və vacib görüşlər keçirib. Dünyanın mühüm güc və siyasət mərkəzlərindən biri olan Fransada Prezident Emmanuel Makron, eləcə də bu ölkədə fəaliyyət göstərən böyük şirkətlərin rəhbərləri ilə keçirilən görüşlər əlaqələrin daha da dərinləşməsinə, yeni müstəviyə yüksəlməsinə stimul verdi.

> **12 ölkəyə 16 səfər**
> **Prezident İlham Əliyev ötən il**
>
> - İsveçrəyə, Türkiyəyə (3 dəfə), Böyük Britaniyaya, Rusiyaya (3 dəfə), Belçikaya, Fransaya, Qazaxıstana, Qırğız Respublikasına, Xorvatiyaya, Tacikistana, Belarusa və Türkmənistana səfər edib.
>
> **12 prezident və 5 baş nazirlə**
>
> İsveçrə, Türkiyə, Rusiya, Fransa, Qazaxıstan, Qırğız Respublikası, Xorvatiya, Tacikistan, Belarus, Türkmənistan, Ukrayna və Əfqanıstanın dövlət başçıları;
>
> Türkiyə, Böyük Britaniya, İsrail, Gürcüstan və Macarıstanın hökumət rəhbərləri ilə görüşüb.

Onu da vurğulayaq ki, Prezident İlham Əliyev Fransaya ümumilikdə 13 dəfə səfər edib. Bütün səfərlərdə olduğu kimi, bu dəfə də iki ölkə arasında mühüm sənədlər imzalanıb. “Azərkosmos” ASC ilə Fransa Milli Kosmik Tədqiqatlar Mərkəzi arasında kosmos sahəsində əməkdaşlıq fəaliyyətinə dair Çərçivə Sazişi, “Azərsu” ASC və “SUEZ Group” arasında niyyət sazişi, “Azərbaycan Hava Yolları” QSC ilə “Modern Construction Group” və “Thales” şirkətləri arasında anlaşma memorandumu, daha 3 müqavilə və niyyət məktubu imzalanıb.

Prezident İlham Əliyev Parisdə Fransa Senatının sədri Jerar Larşe, Fransa Milli Assambleyasının sədri Fransua de Rüji və Fransa Beynəlxalq Əlaqələr İnstitutunun icraçı sədri Tyerri de Montbrial ilə görüşlər keçirib.

### Xəzərin hüquqi statusu ətrafında müzakirələr başa çatdı

Avqustda Qazaxıstanın Aktau şəhərində Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısı keçirilib. Bu məqsədlə avqustun 12-də Prezident İlham Əliyev bu ölkəyə səfər edib.

V Zirvə toplantısında Xəzər dənizinin hüquqi statusu haqqında konvensiya imzalanıb. Konvensiyanı Azərbaycan Prezidenti İlham Əliyev, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Rusiya Prezidenti Vladimir Putin, İran Prezidenti Həsən Ruhani və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov imzalayıblar. Bu sənədin imzalanması ilə Xəzər hüquqi statusu ətrafında müzakirələr və həm də mübahisələr birdəfəlik başa çatdı. Bu konvensiya Azərbaycanın milli maraqlarını tam ehtiva edir.

### Bir ayda 4 səfər

Sentyabrın 1-də Prezident İlham Əliyev Rusiya Federasiyasına rəsmi səfər edib. Həmin gün Soçi şəhərindəki “Boçarov Ruçey” dövlət iqamətgahında prezidentlər İlham Əliyev və Vladimir Putin arasında görüş keçirilib. Azərbaycan Prezidentinin Vladimir Putinlə görüşü, apardığı danışıqlar bir daha iki ölkə arasında əməkdaşlığın daim yüksələn xətt üzrə davam etdiyini göstərib.

Xatırladaq ki, bu, Azərbaycan və Rusiya prezidentlərinin il ərzində hələlik 3-cü görüşü idi. Rəsmi səfər çərçivəsində imzalanan sənədlər əsasən iqtisadi məsələləri əhatə etdi. Bunun özü də iki ölkə arasında məhz yüksək siyasi anlaşmanın olmasının təzahürüdür. Bu baxımdan Prezident İlham Əliyevin səfəri iki ölkə arasındakı əlaqələrin dostluq və əməkdaşlıq ənənələrinə söykənərək inkişaf etdiyini göstərdi. Ən əsası, bir daha təsdiq olundu ki, Azərbaycan Rusiyanın həm strateji, həm də Cənubi Qafqazdakı əsas siyasi-iqtisadi tərəfdaşıdır.

Sentyabrın 3-də Qırğız Respublikasının Çolpon-Ata şəhərindəki Çingiz Aytmatov adına “Rux Ordo” Mədəniyyət Mərkəzində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Sammiti keçirilib. Bu məqsədlə Prezident İlham Əliyev Qırğız Respublikasına səfər edib. Sammitdə növbəti zirvə görüşünün Azərbaycanda keçirilməsi qərara alınıb. Sammitdə Qırğızıstan, Özbəkistan, Qazaxıstan, Türkiyə prezidentləri və Macarıstanın Baş naziri Viktor Orban iştirak ediblər.

Sentyabrın 6-da Prezident İlham Əliyev Xorvatiyaya rəsmi səfər edib. Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç ilə görüşlərdə iki ölkə arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulanıb. Prezident İlham Əliyevin Xorvatiyaya rəsmi səfərinin əlaqələrin daha da möhkəmlənməsi baxımından əhəmiyyəti qeyd olunub. Səfər zamanı iki ölkə arasında iki sənəd imzalanıb.

Sentyabrın 28-də Tacikistanın paytaxtı Düşənbə şəhərində MDB Dövlət Başçıları Şurasının iclası keçirilib. Bu məqsədlə Prezident İlham Əliyev Tacikistana səfər edib.

### Azərbaycanın sərmayəsi ilə tikilən zavod

Oktyabrın 19-da Türkiyəyə işgüzar səfər edən Prezident İlham Əliyev bu ölkənin rəhbəri Rəcəb Tayyib Ərdoğanla birlikdə İzmir şəhərində “Star” neft emalı zavodunun açılış mərasimində iştirak edib. “Star” zavodunun ümumi neft emalı gücü 10 milyon ton təşkil edəcək və müəssisənin əsas xammal tədarükçüsü SOCAR-dır. Zavod 5 milyon ton dizel yanacağı istehsal etmək imkanına malikdir və Türkiyənin idxalının 40 faizə düşməsinə səbəb olacaq. Həmçinin mayeləşdirilmiş qazın idxal səviyyəsi də 70 faizə enəcək. “Star” neftin qiymətindən asılı olaraq hər il 6-8 milyard dollarlıq ticarət həcmi formalaşdıracaq.

“Star” zavodunda hər il 10 milyon ton xam neft emal ediləcək. Zavodda ildə 1,6 milyon ton nafta, 1,6 milyon ton təyyarə yanacağı, 4,8 milyon ton az kükürdlü dizel yanacağı, 700 min ton neft koksu, 420 min ton qarışıq ksilen və 160 min ton kükürd istehsal olunacaq. Zavod “Petkim” neft-kimya kompleksinin nafta və qarışıq ksilenə olan tələbatını tam ödəyəcək.

### Rusiya Prezidenti ilə 6 görüş

Noyabr ayında Prezident İlham Əliyev Belarus və Türkmənistana rəsmi səfərlər edib. Bu səfərlər ikitərəfli əlaqələrə əlavə impulslar vermək, genişmiqyaslı əməkdaşlıq üçün mövcud potensialdan hərtərəfli yararlanmaq baxımından vacib əhəmiyyət kəsb edib. Azərbaycan Prezidentinin Aleksandr Lukaşenko və Qurbanqulu Berdiməhəmmədovla görüşləri, imzalanan sənədlər bir daha bu ölkələrin Azərbaycanla sıx münasibətlərinin təsdiqi oldu.

Dekabrın 6-da isə Prezident İlham Əliyev MDB dövlət başçılarının qeyri-rəsmi zirvə görüşündə iştirak etmək üçün Rusiyaya işgüzar səfər edib. Beləliklə, Prezident İlham Əliyevin son 3 səfəri göstərir ki, MDB üzvü olan dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığı gücləndirmək, keçmiş sovetlər birliyi dövründən mövcud olan çoxşaxəli əlaqələri müasir dövrün tələbləri səviyyəsində inkişaf etdirmək rəsmi Bakının xarici siyasətində vacib məsələlərdən biri kimi nəzərdən keçirilir. Cənab İlham Əliyevin Rusiyaya işgüzar səfəri zamanı həm də Azərbaycan və Rusiya prezidentləri arasında ötən il sayca 6-cı görüş baş tutub.

İl ərzində Prezident İlham Əliyev 12 ölkəyə (İsveçrə, Türkiyə, Böyük Britaniya, Rusiya, Belçika, Fransa, Qazaxıstan, Qırğız Respublikası, Xorvatiya, Tacikistan, Belarus, Türkmənistan) 16 dəfə səfər edib, 12 prezident (İsveçrə, Türkiyə, Rusiya, Belçika, Fransa, Qazaxıstan, Qırğız Respublikası, Xorvatiya, Tacikistan, Belarus, Türkmənistan, Ukrayna, Əfqanıstan), 5 baş nazir (Türkiyə, İsrail, Gürcüstan, Böyük Britaniya və Macarıstan), o cümlədən NATO, Avropa İttifaqı, Dünya İqtisadi Forumu kimi təşkilatların rəhbərləri ilə görüşüb.

Bütün bunlar göstərir ki, Azərbaycanın xarici siyasəti çoxşaxəli və müstəqildir. Prezident İlham Əliyevin uğurlu diplomatiyası ilə Azərbaycan dünya birliyindəki mövqeyini getdikcə möhkəmləndirir və daha nüfuzlu söz sahibinə çevrilir.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***






# Xalqımıza qarşı məkrli siyasətin növbəti təzahürü

Bundan sonra daha da iştahlanan Ermənistan KP-nin birinci katibi Arutyunov məktubla Stalinə müraciət edib Qarabağın da Ermənistana verilməsini xahiş edir. Lakin M.C.Bağırovun əzəli Azərbaycan torpağı olan Borçalı, Göyçə, Dərbəndin onda Azərbaycana verilməsi məsələsini qaldırması bu fikri arxa plana salmışdı. Bunu görən ermənilər azərbaycanlıların deportasiya edilməsi üzərində dayandılar. Onlar 1947-ci ildə dekabrın 23-də Stalinin imzası ilə bu barədə qanun çıxarılmasına nail oldular. 1948-ci il martın 10-da isə bu qanuna əlavə etdilər. Beləliklə, 1948-ci ildə 10.000, 1949-cu ildə 40.000, 1950-ci ildə 50.000 azərbaycanlı "könüllü" Kür-Araz ovalığına köçürüldü. 70 illik sovet rejimi bizi gerçək tariximizdən uzaq saldı. Hətta genosid qurbanı olmuş 12-14 min soydaşımızın uyuduğu qəbiristanlığı betonlayaraq üzərində Kirovun heykəlini ucaltmış, ətrafda isə istirahət parkı salmışdılar.

Ermənilər məkrli iddialarını dünyaya tanıtdırmaq üçün hələ sovetlər birliyi dövründən fəal iş aparmış, qondarma "soyqırımı qurbanları"na abidələr ucaltmışlar. SSRİ rəhbərliyinin bu məsələdə maraqlı olması erməni şovinistlərini daha da şirnikləndirmiş, "soyqırımı" təbliğatının sistemli şəkildə aparılmasına imkan yaratmışdır. SSRİ dağılana qədər bu təbliğat bilavasitə Türkiyə dövlətinə qarşı yönəlsə də, əslində, bu məsələdə bütün türk-müsəlman dünyası günahlandırılırdı. Qondarma "erməni soyqırımı" məsələsinin harada və necə müzakirə edilməsindən asılı olmayaraq, ümumilikdə bu həm Türkiyə, həm də Azərbaycana qarşı yönəldilmiş bir siyasətə çevrilmişdir. Əslində, 1980-ci illərin ortalarından Azərbaycana qarşı başlanmış növbəti ərazi iddiaları da məhz bu məkrli siyasətin davamı olmuşdur.

1980-ci illərin ortalarından etibarən Mixail Qorbaçovun bədnam yenidənqurma siyasəti başladı. Bu siyasət Azərbaycana qan-qada gətirdi. Millətçilik toxumu yenidən cücərdi. Ermənilər bundan istifadə etdilər və süni şəkildə Dağlıq Qarabağ problemini qondardılar. Bu zaman Moskvada yüksək vəzifədən Heydər Əliyev istefaya göndərildi. Azərbaycanda isə böhranlı vəziyyət yarandı. Erməni təcavüzünə və sovet rəhbərliyinin ermənilərə dəstəyinə etiraz olaraq, xalq küçələrə çıxdı. Azərbaycanlılar isə 1988-ci ildən başlayaraq Ermənistandan - dədə-baba torpaqlarından qovuldular.

XX əsrin 80-ci illərinin sonu və 1990-cı illəri, Azərbaycan xalqının azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdu. Ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin ermənilərə havadarlığından hiddətlənən və meydanlara çıxaraq buna öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı sovet ordusunun yeridilməsi, Azərbaycanda misli görünməmiş faciəyə gətirib çıxardı. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusu erməni quldur dəstələri ilə birgə Azərbaycan xalqına qarşı terror aktı həyata keçirdi. Həmin faciəli günlərində öz xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar.

1990-cı il yanvarın 20-də keçmiş sovet dövlətinin hərb maşınının Azərbaycan xalqına qarşı həyata keçirdiyi qətllər insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixində qara səhifə olaraq qalacaqdır. Milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi.



Sovet ordusunun böyük kontingentinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi. Kommunist diktaturası Çexoslovakiyaya, Macarıstana və Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni hətta o zamankı Sovet İttifaqının müttəfiq respublikalarından biri olan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi. Həmin vaxt Azərbaycan qonşu Ermənistanın da təcavüzünə məruz qalmışdı. Belə bir şəraitdə sovet rəhbərliyi nəinki münaqişənin qarşısını almaq üçün qəti tədbirlər görmüş, əksinə, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri, sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantları da daxil edilmişdi.

Bəzi məlumatlara, xüsusilə "Şit" təşkilatı müstəqil hərbi ekspertlərin hesabatına görə, Bakıya yeridilmiş qoşun kontingentinin sayı 60 min nəfərə çatırdı, - onlar "doyüş tapşırığını" yerinə yetirmək üçün möhkəm psixoloji hazırlıq keçmişlər: Təbliğ edilirmiş ki, "Sizi Bakıya rusları müdafiə etmək üçün gətirmişlər, guya yerli əhali onları vəhşicəsinə məhv edir, ekstremistlər Salyan kazarmalarının (Bakıda əsas hərbi qarnizonun yerləşdiyi ərazi) ətrafındakı evlərin damlarında snayperlər yerləşdirmişlər, təkcə bu ərazidə 110 atəş nöqtəsi var. Binalar, mənzillər Azərbaycan Xalq Cəbhəsinin yaraqlıları ilə doludur, onlar sizi güclü avtomat-pulemyot atəşinə tutacaqlar".

Mixail Qorbaçov başda olmaqla sovet imperiyasının rəhbərliyi Bakıda "rus və erməni kartından" məharətlə istifadə etdi. Guya Bakıya qoşun onları, hərbi qulluqçuların ailələrini qorumaq, "millətçi ekstremistlər" tərəfindən hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu, açıq riyakarlıq, ağ yalan idi. Çünki sovet rəhbərliyinin "dəlilləri" hətta həqiqətə yaxın olsaydı belə, Bakıya təpədən-dırnağadək silahlandırılmış qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt burada daxili qoşunların 11,5 min əsgəri, Müdafiə Nazirliyinə tabe olan Bakı qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri var idi. 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi. Bütün bunlara baxmayaraq, 1990-cı il yanvarın 19-da Mixail Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSRI Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı.

SSRİ Müdafiə Nazirliyinin, DİN və DTK-nın hazırlayıb həyata keçirdiyi "Udar" adlı əməliyyatda əsas rolu xüsusi təyinatlı "ALFA" və SSRİ DTK-nın "A" təxribat qrupları oynayırdı. SSRİ DTK-nın "Alfa" qrupu yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Mətbuat susduruldu. Azərbaycan dünyadan təcrid edildi. Məhz bu faciəli anlarda "Azadlıq radiosu"ndan, Mirzə Xəzərin səsi Mixail Qorbaçovun informasiya blokadasını dağıtdı.

Yanvarın 19-da gecə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və əhaliyə divan tutmağa başladı. Bakının zəbt edilməsi xüsusi qəddarlıqla və misli görünməmiş vəhşiliklə müşayiət edilmişdi. Qorbaçovun fərmanı qüvvəyə minənədək (20 yanvar, saat 00:00) artıq 9 nəfər öldürülmüşdü. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək isə hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışlar. Yanvarın 20-də və sonrakı günlərdə isə Bakı şəhərində 21 nəfər öldürülmüşdür. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda - yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdi.

Tanklar və BTR-lər Bakı küçələrində qarşılarına çıxan hər şeyi əzir, hərbçilər hər tərəfi amansız atəşə tuturdular. İnsanlar nəinki küçələrdə, hətta avtobusda gedərkən, öz mənzillərində oturduqları yerdə güllələrə tuş gəlirdilər. Hərbi qulluqçular 200 ev və mənzili, 80 avtomaşını o cümlədən yaralıları aparmağa gələn təcili yardım maşınlarını və tibb işçilərini də atəşə tuturdular. Sovet qoşunlarının təcavüzü nəticəsində, bir gün ərzində Bakıda 137 nəfər öldürülmüş, 700-dək insan yaralanmış, 800-dən çox adam qanunsuz həbs edilmişdi. Öldürülənlər arasında 5 millətin nümayəndələri, 20-dən çox qadın, uşaq var idi. Həlak olanlar arasında yetkinlik yaşına çatmayanların, qadınların, qocaların, şikəstlərin də olması bir daha sual doğururdu ki, Qorbaçov və ətrafındakıların "millətçi ekstremistlər" adlandırdıqları bunlar idimi?

Adamları xüsusi qəddarlıqla və yaxın məsafədən güllələmişlər. Məsələn, Y.Meyeroviçə 21, D.Xanməmmədova 10-dan çox, R.Rüstəmova 23 güllə vurulmuşdur; xəstəxanalar, təcili yardım maşınları atəşə tutulmuşdu. Adamlar süngü-bıçaqla qətlə yetirilmişdir. Onların arasında hər iki gözü tutulmuş B.Yefimtsev də var idi. Qırğın zamanı "Kalaşnikov" avtomatının ağırlıq mərkəzi dəyişən 5,45 çaplı güllələrindən istifadə edilmişdir.

Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Halbuki, Mixail Qorbaçovun Azərbaycana ezam etdiyi yüksək vəzifəli emissarlar həyasızcasına bəyan edirdilər ki, Bakıda fövqəladə vəziyyət elan olunmayacaqdır. Bax, əli yüzlərlə insanın qanına batmış, sonralar Nobel sülh mükafatı almış Mixail Qorbaçov başda olmaqla sovet imperiyası rəhbərliyinin rəzil siması bu idi.

Xalqımıza qarşı törədilmiş qanlı cinayətin ertəsi günü, ulu öndər Heydər Əliyev həyatının təhlükə qarşısında olmasına baxmayaraq, ailə üzvləri ilə birlikdə Moskvada Azərbaycan nümayəndəliyinə gələrək xalqımıza başsağlığı verdi və Mixail Qorbaçovun günahkar olduğunu birbaşa bəyan etdi. Bu hərəkətə etiraz səsini ucaltdı. Bundan başqa Heydər Əliyev Azərbaycan KP MK-ya, Ali Sovetə, Nazirlər Sovetinə və Azərbaycan xalqına 20 Yanvar faciəsi ilə əlaqədar başsağlığı teleqramı göndərmişdir. Eyni zamanda, teleqramın respublika mətbuatında, radio və televiziyada verilməsini xahiş etməsinə baxmayaraq, onun rəsmi mətbuatda belə, dərc olunmasına imkan verilməmişdir.

Yanvarın 20-də artıq bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutdu. Amma görün, o vaxtkı sovet imperiyasının ideoloji vasitəsi olan "Pravda" qəzeti 22 yanvar tarixli nömrəsində nə yazırdı: "Fövqəladə vəziyyət elan edilməsi üçün görülmüş tədbirlər nəticəsində guya qadınlar və uşaqların tələf olması barədə bəyanatlar aşkar fitnəkar xarakter daşıyır. Bir daha təkrar etmək lazımdır ki, bu, qərəzli yalandır! Ondan məqsəd əhalini sovet ordusuna və hüquq-mühafizə orqanlarına qarşı qaldırmaqdır"...

Əslində isə 20 Yanvar faciəsi XX əsr boyu xalqımıza qarşı yeridilən düşünülmüş siyasətin növbəti təzahürü idi. Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı siyasəti, sovet hakimiyyəti illərində ərazilərimizin tədricən ilhaq olunaraq 125000 kvadratkilometrdən 87000 kvadratkilometrədək azalması, sovet rəhbərliyinin havadarlığı ilə qondarılan Dağlıq Qarabağ hadisələri, azərbaycanlıların Ermənistan ərazisindən - əzəli torpaqlarından qovulması və 20 Yanvar faciəsi bu siyasətin mərhələləri kimi qəbul olunmalıdır.

*(Ardı var)*

***Şikar QASIMOV,***
***Azərbaycan Texniki Universitetinin İctimai fənlər kafedrasının müdiri, tarix elmləri doktoru, professor***

*(Əvvəli qəzetin 15 yanvar tarixli nömrəsində)*

# Bir cüt qərənfil...




## Boş partanın qara dastanı

...Güllərin, çiçəklərin hər biri iki sevən gəncin ən qiymətli hədiyyəsi hesab olunub. İki könülün danışan dili, gülən gözləri, təbəssümlü baxışları kimi gül dəstəsi qədirbilənliklə qəbul edilib. Oğlan sevgilisini gülə bənzədib... Çünki güllərin hər biri göz oxşayır, könül sevindirir. Qərənfilə də bu sevgidən həmişə pay düşərdi: gözəllərin görüşünə dəstə bağlayardılar... 1990-cı ilin "Qara yanvar"ı onun da əlindən aldı bu gülərüzlülüyü. Elədi ağlargözlü şəhid bacısı, sevgilisi, istəklisi...

Taleyə, qismətə bax... Güllərin də qismətinə göz yaşı, ağı yazılarmış. Deyəsən, ilk dəfə qərənfili ağladan Məmməd Aslan olub: "Ağla, qərənfil, ağla" ağısı ilə.

Qanlı-qadalı, odlu-alovlu illər bəşər tarixində zaman-zaman təkrarlanıb. Xalqımız da bu odalovların içərisindən az keçməyib. Bax elə buna görə azadlıqsevərdir, mətindir, iradəli, dözümlüdür! Ölümün gözünə dik baxmaq isə şərəfdir! Bu, xalqımızın hünəriylə qazandığı şərəf, alın yazısı və tale payıdır: uşaqdan-böyüyə cəllad üstünə, silah qabağına yeriyir, qorxmazlığı, cəsurluğu ilə ölümə meydan oxuyur.

Ulu öndər Heydər Əliyev 20 Yanvar şəhidlərinin ailə üzvləri ilə görüşlərinin birində demişdir: "20 Yanvar faciəsi mənim üçün xalqımızın ən ağır faciəsidir. Amma eyni zamanda 20 Yanvar Azərbaycan xalqının mərdlik, qəhrəmanlıq və şəhidlik zirvəsinə qalxmasının əyani nümayişidir".

### O qanlı şənbə gecəsində qərənfil ömürlü balalar da şəhid oldular

20 Yanvardan bu yana qərənfillər əldə cüt oldular. Baş-başa verib şəhidlərə ağı dedilər. O qanlı şənbə gecəsində qərənfil ömürlü balalar da şəhid edildi, qanlarına qəltan olundu.1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə zalıma, zülmə tabe olmayan xalqımız tarixin yaşıdı - qədim Bakını qan çanağına döndərən imperiya cəlladları ilə üz-üzə dayananda onların arasında 13 yaşlı İlqarla Larisa, 14 yaşlı Nəriman, 16 yaşlı Vera, eləcə də onların babaları timsallı Yunus Rəhimov və səksəni haqlayan Sura Babayeva da vardı...

Nə idi bu ixtiyar yaşlı nənə ilə babanın, eləcə də məktəbli balaların günahı?! O müdhiş gecənin şəhidləri olmaqmı? Yoxsa azadlıq aşiqlərinin necə güllələbaran edilməsini görüb qaniçən cəlladlara nifrətlə baxmaqlarımı?

Larisa Fərman qızı Məmmədova Bakıdakı Tofiq Hüseynov adına 134 nömrəli rus məktəbinin 7 "v" sinfində oxuyurdu. Sinif yoldaşları Larisanı heç zaman solmayacaq çiçəyə bənzədiblər. Onların Larisa haqqında yazdıqları xatirələrdə göstərilir ki, Şəhidlər xiyabanında alovlanan əbədi məşəl heç vaxt sönməyəcək. Çünki bu məşəl öz alovunu, odunu xiyabanda uyuyan şəhidlərin vətənə, torpağa sevgisindən, azadlıq eşqindən götürüb. İllər ötəcək, nəsillər dəyişəcək, lakin şəhidlərimizin xatirəsi ürəklərdə daim yaşayacaq və onlar heç vaxt unudulmayacaq, Larisa ilə İlqar - fidan şəhidlərimiz isə Azərbaycan xalqının yaddaşında 13 yaşlı məktəbli kimi əbədi qalacaqlar.

### Kim kuklaya güllə atar

Xalq şairi Bəxtiyar Vahabzadə o qanlı gecə şəhid olan 13 yaşlı Larisanı şeir dili ilə belə oxşadı:

*On üç yaşlı körpə bala,*
*Yazıq anan necə dözsün*
*Bu kədərə, bu məlala?*
*Məzarının baş ucunda*
*kuklan da var.*
*Bu gün layla çalmalıykən*
*sən kuklana,*
*Kuklan sənə layla çalar.*
*Sən özün də kukla idin.*
*Bu dünyanın əvvəlini,*
*Axırını heç bilmədin.*
*Kim kuklaya güllə atar?*
*Atan oldu...*

1977-ci il avqustun 11-də Bakı şəhərində anadan olan Larisa Məmmədova musiqi təhsili də alırdı. O müdhiş gecədə xalqımızın müxtəlif yaşlı insanları içərisində Larisanın hər dəfə xatırlanması səbəbsiz deyil. Görün bu yaşda qızcığaz nə deyib atasına: "Mən mübariz xalqımızı və üçrəngli bayrağımızı görmək istəyirəm!"

O gecə atası Fərmanın işlədiyi avtomobil parkının işçiləri ilə birlikdə maşınqayırma zavodunun yanında "İkarus" avtobusunda oturduqları yerdə güllələbarana tutulurlar. Sanki qaniçənlər, imperiya cəlladları Vətən, xalq üçün döyünən bapbalaca ürəyini susdurmaq üçün Larisanı hədəf seçiblər. Ürəyini nişan alıblar. Atabala al-qana bələniblər. Təcili xəstəxanaya çatdırılıblar. Ata amansız və vaxtsız ölümün pəncəsindən xilas edilsə də, Larisa adını azadlıq aşiqləri qurbanlarının siyahısına yazdırıb. O gecənin qəliblərindən biri sayılan 13 yaşlı şəhid Larisa "Azadlıq uğrunda fəxri mübariz" adı qazanıb!

### Qalina Urvaçova-Məmmədova: "... Kim idi balalarımızı hədəf seçən?"

Ukraynanın Donetsk vilayətindən öz səadətinin ardınca Azərbaycana gəlmiş Qalina Urvaçova-Məmmədova (Larisanın anası) o gündən ümumxalq kədərini qəribə bir özünəməxsusluqla, suallar fırtınasında yaşayır: "Kim idi balalarımızı hədəf seçən? Bizi niyə güllələbarana tutmuşdular o günlər?!"

Hər il 20 Yanvar ərəfəsində təhsil aldığı məktəbdə Larisadan danışılır. Xatirəsinə həsr olunan inşa, şeir, rəsm müsabiqələri keçirilir. 134 nömrəli məktəbdə onun adını daşıyan şagird təşkilatı da fəaliyyət göstərir. Bunlar bir daha əminlik yaradır ki, bu balaca qız ürəklərdə yaşayır.

...20 Yanvarda hələ ölümün nə olduğunun fərqində olmayanlar şəhidlik zirvəsinə yüksələcəklərini ağıllarına belə gətirmirdilər. Günlərini məktəbli dostları ilə keçirən bu balaların ovuc boyda ürəklərindəki böyük Vətən sevgisi, azadlıq arzusu onları da həmin gecə odun, alovun içinə çəkib apardı. O ayazlı-şaxtalı gecədə 13 yaşlı İlqar dostları Zakir və Pərvizlə qonşuları Nazimin "Zaporojets" markalı maşının ilə sinəsini düşmən tanklarına sipər edən soydaşlarımıza ocaq qalayıb isinmək üçün odun aparırdı. Qəfildən tanklarla üz-üzə gəldilər. Maşınlarını saxlayıb qaçmaq məcburiyyətində qaldılar. Düşmən tankı əvvəlcə maşının üstündən keçərək onu yerə yapışdırdı. Sonra qaçan bu fidanları atəşə tutdu. İlqar arxada olduğundan, ağır yaralandı. Xəstəxanaya çatdırsalar da...

İbrahimov İlqar Rəşid oğlu Bakının Yasamal rayonundakı 167 nömrəli məktəbin 7 "a" sinfində oxuyurdu. Yadigar qalan şəklindən görünür ki, çox yaraşıqlı, gülərüz olub. Tay-tuşları artıq gənclik illərini arxada qoyduqlarından, İlqarı da belə təsəvvür eləmək asan deyil.

### Şərəfli ömürlülərin qibtə ölümləri, yaxud onların nə yaşı böyüdü, nə də boyları...

Amma ürəklərdə boy atdı, yaşadı. Tay-tuşlarından uzunömürlü oldu İlqar. Deyirlər ki, sakit təbiətli olan bu uşaq ədəbiyyatı, xüsusən də poeziyanı çox sevirmiş. Kim bilir, yaşasaydı, bəlkə də tanınmış ədəbiyyatçı, yaxud şair, nasir... olacaqdı. Ömrü yetmədi, vaxtı olmadı. Amma İlqar milyonlardan yox, Vətənin azadlıq aşiqlərindən biri kimi tarixə yazıldı. Qanlı şənbənin qurbanlarından, Şəhidlər xiyabanının əbədi sakinlərindən biri olaraq, o, ən müqəddəs və şərəfli sayılan şəhid adını qazandı. Bir vaxtlar qapısını açdığı məktəbdə 1990-cı ildən bu günədək burada 20 Yanvar faciəsinə, İlqarın xatirəsinə həsr olunmuş silsilə tədbirlər keçirilir.

Bu da müqəddəs, ziyarətgahımız, görüşünə qəm-qüssə, kədərlə gəldiyimiz Şəhidlər xiyabanı. İlqarın məzarı şair-şəhid, tələbə Ülvi Bünyadzadənin qəbri ilə yanaşıdır. 20 Yanvarda qətlə yetirilənlərin şərəfli ömürlərinə, qibtə ölümlərinə həsr olunan "Şəhidlər" kitabının müəllifi, şair-publisist Rafiq Səməndər də o ağlar günlərin şahidi kimi danışır: "Evlərində olanda Piroğlan adlı uşaq ona şeir yazıb gətirmişdi. Anası ağlaya-ağlaya şeiri verib dedi ki, onu İlqarın yazısına əlavə elə, xahiş edirəm. İlqar Şəhidlər xiyabanında tələbə Ülvi ilə yanbayan dəfn olunub. Şeir də ikisinə yazılmışdı, daha doğrusu, Ülviyə müraciətlə:

*İlqar da kiçik qardaşın,*
*Sən onun da qeydinə qal.*
*Oyuncağın sındıranda*
*Ona təzə oyuncaq al.*

*Gecələr soyuq olanda,*
*Bağrına bas, qoynuna al.*
*Ana, - deyib ağlayanda,*
*Sağ qolunu boynuna sal"...*

İlqar o gecə ilk və son dəfə anasını eşitmədi. Balaca bacıları Alla ilə Səbinə də onun arxasınca ağladılar, xeyiri olmadı. Anası Katya İlqarın qayıtmayacağına əmin idi. Ona görə də ona soyuq olacağından qorxub, yun köynəyini götürüb küçəyə qaçdı. Amma..., onun arxasınca baxa-baxa qaldı: kəlmələri dilində, yun köynəyi isə əlində...

...Müqəddəs ziyarətgaha çevrilən Şəhidlər xiyabanında yanaşı düzülən, eyni biçimli məzarlarda yatanların hər biri xalqımızın doğması, əzizi kimi daim anılır, yad edilir, xatırlanır, yaddaşlara yazılır. Amma İlhamla Fərizə kimi, İlqarla Larisanın... məzarları üzərinə əyilində bir cüt göz yaşı yanaqlardan süzülür. Axı, elə 13 yaşındaca ömrü daşlaşan bu məktəbli balaların məsum baxışları sinə dağlayır, ona görə hər kəs ağlayır. Larisanın məzarının üstündən oyuncaqlar əskik olmayıb: saralıb-solsalar da...

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

2019-cu il “Nəsimi ili”dir

# Cahana sığmayan Azərbaycan şairi

*Əvvəli 1-ci səh.*

İmadəddin Nəsiminin həyatda və sənətdə rəhbər tutduğu hürufilik təliminin görkəmli yaradıcısı Fəzlullah Nəimi Astrabadi (1340-1394) ilə əlaqələri də maraq doğuran mühüm hadisələrlə bağlıdır. Mənbələrdə haqlı olaraq bu əlaqələr mürşid-şagird münasibətləri kimi yüksək qiymətləndirilir. Öz dövrünün görkəmli şəxsiyyətləri olmuş bu böyük mütəfəkkirlərin əlaqələri haqqında müxtəlif versiyalar mövcuddur. Bir versiyaya görə, İmadəddin Nəsimi XIV əsrin 80-ci illərində hürufizm ideyalarını təbliğ etmək üçün Şirvana gələrək söhbətlər aparan hürufizmin ideya-nəzəri əsaslarını yaratmış Fəzlullah Nəimi ilə burada tanış olmuşdur. Elmi ədəbiyyatlarda da qeyd olunduğu kimi, yaradıcılığının başlanğıc dövründə “Hüseyni” təxəllüsü ilə şeirlər yazan İmadəddin Nəsimi hürufizmin böyük ideoloqunun təliminə maraq göstərmiş və bu təriqəti qəbul etmişdir. Fəzlullah Nəiminin qızı ilə ailə qurması da sadəcə tərcümeyi-hal göstəricisi olmayıb, Nəsiminin ustadı ilə bütün varlığı ilə bağlı olmasının, əqidə və amal birliyinin mühüm faktlarından biridir. Eyni zamanda, İmadəddin Nəsiminin Şirvandan ayrılıb son dəfə Türkiyə-Suriya səfərinə gedərkən Naxçıvana gəlib, Xanəgahda Fəzlullah Nəimi ilə görüşməsi haqqındakı rəvayətlər də ədəbi-ictimai fikir tariximizin nadir səhifələrindən biri olmaqla bərabər, onların arasındakı münasibətlərin dərinliyini nümayiş etdirir. Fəzlullah Nəimi hürufizmin mükəmməl nəzəriyyəsini, İmadəddin Nəsimi isə böyük poeziyasını yaratmış qüdrətli şəxsiyyətlərdir. Bundan başqa, İmadəddin Nəsiminin Şərqdə qəzəl janrında böyük şeir xəzinəsi yaratmış Hafiz Şirazi ilə yaxın münasibətlərinin olması onun dövrün ədəbiyyat aləmində əsas simalardan biri kimi qəbul edildiyini düşünməyə əsas verir.

Orta əsr klassik Azərbaycan lirikasının bənzərsiz nümunələrini yaratmış İmadəddin Nəsiminin şeirləri insanın qüdrəti haqqında himn kimi səslənir. Nəsiminin şeirlərində kamil insan olmağa qüvvətli çağırışlar ifadə edilmişdir. O, kamil insanı təkcə real dünyanın yox, geniş mənada kainatın ən uca varlığı kimi vəsf etmişdir:

Mərhəba, ey bəhri-zatın gövhəri-yekdanəsi,
Şəmi-vəhdətdir cəmalın, kün-fəkan pərvanəsi.

...Hər ki, qəvvas oldu bildi vəhdətin bəhrində kim,
Aləmin cismi sədəfdir, sənisən dürdanəsi.

... Ey bu şeyda könlümün halın soran hər dəm mana,
Dərdini bildirməz ol, eşqin oduna yanəsi.

...Buldu ləlindən Nəsimi nəfxeyi-ruhulqüdüs,
Ey Nəsiminin həyatı, canımın cananəsi.

İnsanın qüdrətini tərənnüm edən Nəsiminin poeziyasında mübarizə ruhu vardır. O, üsyankar şeirləri ilə haqqa qovuşan kamil insan olmaq uğrunda inadla mübarizə aparmışdır. Şairin fikrincə, ilahi varlıq səviyyəsinə yüksələn, böyük mənəvi sərvət olan kamil insan ədalətli cəmiyyət yaratmağın da real əsasını təşkil edir. İmadəddin Nəsimi yaradıcılığında ilhamla vəsf olunan kamil insan obrazı orta əsr Azərbaycan şeirində bədii sözdən yoğrulmuş əzəmətli insan heykəlidir.

Mənəvi kamillik konsepsiyasını ifadə edən Şərq poeziyasında Nəsiminin lirikası fərqli bir mövqeyə malikdir. O, əsərlərində idealla insanlıq arasında bərabərlik yaratmağa nail olmuşdur. Daha doğrusu, İmadəddin Nəsimi insanı ilahi qüdrətə malik ideal miqyasında vəsf etmişdir. Onun şeirlərində insan orta əsrlər Şərq və Azərbaycan poeziyasında olduğu kimi, yaxud aşiqanə üslubdan daha çox konkret olaraq fərdin mənəvi ucalığı, şəxsiyyətin daxili azadlığı və əzəməti formatında təqdim olunmuşdur. Nəsimi insanı klassik Azərbaycan şeirindəki eşq mehrabından çıxararaq, ilahi varlıq müstəvisinə doğru yol gedən həqiqət aşiqi qismində tərənnüm etmişdir. Nəsimi daha çox aşiqanə ruhda inkişaf edən Azərbaycan poeziyasında ictimai motivlərin meydanını genişləndirmişdir. Bundan başqa, Nəsiminin poeziyasında nəsihətçilik arxa planda qalmış, həyat fəlsəfəsi və mübarizə ruhu ön mövqeyə keçmişdir. İmadəddin Nəsimi özü də keşməkeşli tərcümeyi-halı və mübariz ruhlu şeirləri ilə kamil insan obrazının möhtəşəm şair-mütəfəkkir abidəsi kimi ucalır.

Fikrimizcə, İmadəddin Nəsiminin “Məndə sığar iki cahan, mən bu cahana sığmazam” misrası ilə başlanan məşhur şeiri İmadəddin Nəsiminin mükəmməl avtoportretidir. Sənəti və şəxsiyyəti haqqında müasirlərindən tutmuş tədqiqatçılarına qədər məğrur şairin barəsində yazılanların hamısında “Sığmazam” bəyanatı Nəsiminin real simasını və idealını mənalandıran açar anlayış kimi göstərilir. Azərbaycan klassik lirikasının nadir nümunələrindən biri olan “Sığmazam” şeirində İmadəddin Nəsiminin mübariz ideyalarının və çağırışlarının dövrə-zamana sığmayan qüdrəti ifadə olunmuşdur. “Sığmazam” şeiri cahana sığmayan böyük Azərbaycan şairinin əsrlərdən-əsrlərə qədər gəlib çatan və yaşamaqda davam edən məğrurluq manifestidir. Şeirdəki yenilməz dağlar kimi parlaq və əzəmətli görünən lirik mən “Can ilə həm cahan mənəm, dəhrilə həm zaman mənəm” - deyən İmadəddin Nəsiminin cahana və zamana sığmayan proobrazıdır.

Bu, Şərq poeziyasında insan haqqında ən möhtəşəm poetik monoloqdur.

“Sığmazam” qəzəli kövnü-məkana, cism ilə cana, dəhrü-zəmana və cahana sığmayan qüdrətli Azərbaycan şairinin bənzərsiz ucalığının şərhi-bəyanıdır. Bu, həyatda və sənətdə Nəsimi səviyyəsinə çata bilməyin poetik bəyanatıdır:

Məndə sığar iki cahan, mən bu cahanə sığmazam,
Gövhəri-laməkan mənəm, kövnü-məkanə sığmazam.

...Kimsə gümanü zənn ilə olmadı həqq ilə biliş,
Həqqi bilən bilir ki, mən zənnü-gümana sığmazam.

...Can ilə həm cahan mənəm, dəhrilə həm zaman mənəm,
Gör bu lətiqifeyi ki, mən dəhrü-zəmanə sığmazam.



...Zərrə mənəm, günəş mənəm, çar ilə pəncü şeş mənəm,
Surəti gör bəyan ilə, çünki bəyana sığmazam.

Gərçi bu gün Nəsimiyəm, haşimiyəm, qureyşiyəm,
Bundan uludur ayətim, ayətə, şanə sığmazam.

Xalq şairi Bəxtiyar Vahabzadə “Məndə sığar iki cahan” misrasının izahından bəhs edərkən buradakı iki cahan anlayışı ilə Nəsiminin “Məndə sığar ikən cahan” mənasını ifadə etməsi qənaətində olduğunu qeyd etmişdir. “Məndə sığar ikən cahan” anlayışı da hürufi ədəbi-fəlsəfi təliminə uyğun olub, Nəsiminin əqidə bütövlüyünü və qeyri-adi məğrurluğunu ifadə edir. Bədii mətn mənasında gerçəkliyə uyğun olub-olmamasından asılı olmayaraq, bu təfsir də Nəsimi obrazının əzəmətini və miqyasını dolğun surətdə əks etdirən versiyalardan biri kimi mühüm əhəmiyyət daşıyır.

Seyid İmadəddin Nəsiminin lirikası özünəməxsus sənətkarlıq xüsusiyyətlərinə malikdir. Ənənəvi klassik şeir üslubunda yazıb-yaratmasına baxmayaraq o, orta əsrlər Azərbaycan lirikasını bənzərsiz bədii təsvir və ifadə vasitələri ilə zənginləşdirmişdir. Təsvir və ifadə vasitələrindəki yeniliklər Nəsimi sənətinin orijinallığını müəyyən etmişdir. Onun hər misrasında bir neçə təşbehin işləndiyi qəzəlləri təkrarsız sənət nümunələridir. Şairin “Nigarım, dilbərim, yarım, ənisim, munisim, canım” misrası ilə başlayan 7 beytlik qəzəlinin bütün misralarının başdan-başa bənzətmələrdən və daxili qafiyələrdən ibarət olması ümumşərq poeziyasında nadir sənət hadisəsi sayılmağa layiqdir.

Nigarım, dilbərim, yarım, ənisim, munisim, canım,
Rəfiqim, həmdəmim, ömrüm, rəvanım, dərdə dərmanım.

...Gülüm, reyhanım, əşcarım, əbirim, ənbərim, udum,
Dürüm, mirvaridim, kanım, əqiqim, lə'lü mərcanım.

Diləfruzum, vəfadarım, cigərsuzum, cəfakarım,
Xudavəndim, cahandarım, əmirim, şahü sultanım.

Çırağım, şəm'imü nurim, ziyamü yıldızım, şəmsim,
Həzarım, bülbülüm, kəbkim, Nəsimiyi-xoşəlhanım!

Bədii dilin sadəliyi, aydınlığı və xəlqiliyi etibarilə də İmadəddin Nəsiminin lirikası sələflərindən və xələflərindən fərqlənir. O, dərinmənalı şeirləri ilə Azərbaycan şeir dilinin zənginliyini, sadəlik və aydınlığını geniş imkanlara malik olduğunu nümayiş etdirmişdir. Nəsimi öz ideyalarını, hürufi fikirlərini saraylardan daha çox xalqa çatdırmaq üçün sadə və anlaşıqlı dildə yazmağa üstünlük vermişdir. Beləliklə, Nəsimi klassik romantik poeziyanı xalqa daha da yaxınlaşdırmışdır. Onun XIV-XV əsrlərdə yazılmış elə şeirləri vardır ki, həmin poetik nümunələri dilin saflığı baxımından xalq dilinin poeziyada hakim mövqeyə çatdığı XVIII əsr lirikası örnəkləri ilə müqayisə etmək olar. Bu mənada Nəsiminin şeirləri Azərbaycan ədəbiyyatında farsdilli poeziya ilə Molla Pənah Vaqif lirikası arasında möhkəm mənəvi körpüdür. Hətta şairin bir çox qəzəlləri dilinin tərkibi etibarilə XX əsrin və hətta bu günün alınma sözlərə həssas olan qəzəl janrında yazılmış şeirləri təəssüratı yaradır:

Canana mənim sevdiyimi can bilir ancaq,
Könlüm diləyin dünyada canan bilir ancaq.

…Abdal oluban bəylik edən arifi gör kim,
Bu səltənətin qədrini sultan bilir ancaq.

…Könlüm gəmisin qərq edə gör eşq dənizinə
Kim, bu dənizin bəhrini ümman bilir ancaq.

Heç kimsə Nəsimi sözünü kəşf edə bilməz,
Bu, quş dilidir, bunu Süleyman bilir ancaq.

Bu qəbildən olan qəzəllər məqtə beytdəki müəllifliyi bildirən Nəsimi sözü yerinə Vahid (Əliağa Vahid), yaxud Mirmehdi (Mirmehdi Seyidzadə) və ya hətta Süleyman (Süleyman Rüstəm) yazılsa, dilinin sadəlik, aydınlıq və saflıq etibarilə həmin qəzəlin bu görkəmli şairlərə aid olduğuna heç kəs şübhə ilə yanaşmaz. Dilinin sadəliyinə, poetik ahəngdarlığına, ideyaca müasirliyinə görədir ki, bəstəkarlarımız və müğənnilərimiz indi də Nəsimi şeirlərinə müraciət edirlər.

Seyid İmadəddin Nəsimi böyük mütəfəkkir şairdir. Onun fəlsəfəsində hürufizm ideyaları və ədəbiyyatın böyük idealları öz əksini tapmışdır. Nəsimi ədəbiyyatda müəyyən ənənəsi olan “Ənəlhəq” ideyasını ədəbi təlim səviyyəsinə çatdırmışdır. Böyük şair həyatda da, cəmiyyətdə də, ədəbiyyatda da sarsılmaz əqidə yolunda, vahid amal uğrunda mübarizə aparmışdır. Möhkəm mənəvi bütövlük və kamillik İmadəddin Nəsiminin idealıdır. Orta əsrlər Azərbaycan poeziyasında insanı Nəsimi qədər uca və möhtəşəm səviyyədə, qüdrətli təqdim edən sənətkar göstərmək çətindir. O, klassik ədəbiyyatda xüsusi yer tutan humanizm fəlsəfəsini yeni mərtəbəyə qaldırmışdır. Nəsimi əsasən qəzəl üstündə köklənmiş Azərbaycan klassik şeirini yüksək poetik səviyyədə müstəzad, tərcibənd, müləmmə, tuyuq, əliflam janrlarında yazılmış orijinal şeirlərlə zənginləşdirmiş, daim novator sənətkar kimi çıxış etmişdir. Bütün bunlara görə novator xüsusiyyətlər və ənənələrlə zəngin olan Nəsimi yaradıcılığı ədəbi məktəb səviyyəsinə yüksəlmişdir. Nəsimi ədəbi məktəbi Azərbaycandan başqa digər türk-müsəlman ölkələrinin də ədəbiyyatını əhatə etmişdir. Novator şairin adı və sənəti ilə bağlı olan poetik ənənələr uzun əsrlər boyu yaşamış, poeziyanın inkişafında böyük rol oynamışdır. Nəsiminin mübariz, mətin, mərdanə poeziyası bu gün üçün də aktual və müasirdir.

Böyük əqidə sahibi İmadəddin Nəsiminin faciəli şəkildə öldürülməsi haqqında geniş yayılmış rəvayətlər dünya ədəbiyyatında təkrarı olmayan qəhrəmanlıq mifidir. Nəsiminin həyatı və sənəti əqidəsi yolunda şəhidlik zirvəsinə yüksəlməyin ibrətamiz nümunəsidir. Bizim zamanlara qədər gəlib çatmış rəvayətə görə edam zamanı onun bədənindən axan qanın bir damcısı “bu məlunun qanından bir damcı hara düşsə kəsilib atılmalıdır” - deyən rəsmi şəxslərdən birinin barmağına sıçradıqda həmin şəxs bu ifadəni “söz məsəli” dediyini bildirərək canını qurtarmaq istəmişdir. Həyatının ən son məqamında məğrur şairin bağrından qopmuş aşağıdakı misralar məsləyi yolunda dönməzlik dərsləri kimi səslənmişdir:

Zahidin bir barmağın kəssən dönüb haqdan qaçar,
Gör bu gerçək aşiqi sərpa soyarlar, ağrımaz.

Cəmi 48 il ömür sürmüş və 3 dildə: Azərbaycan, fars və ərəb dillərində böyük və zəngin ədəbi irs yaratmış İmadəddin Nəsiminin şeirlərində ifadə olunan yüksək humanizm, dünyəvilik, mənəvi kamillik, ictimai ədalət və ilahi eşq ideyaları zamanı daha da irəli aparan çağırışlardır. Nəsiminin böyük idealları müasir dövrün də ideyalarını əks etdirir, onun əsərləri insanlığı mənəvi kamilliyə, ədalətə, humanizmə çağırmaqda davam edir.

İmadəddin Nəsimi Azərbaycandan getdikdən sonra müxtəlif fasilələrlə Türkiyədə, İranda, İraqda yaşamış, nəhayət, Suriyada olmuş, Hələbdə məskunlaşmış və olduğu yerlərdə hürufizm ideyalarını geniş şəkildə təbliğ etmişdir. Onun təbliğ etdiyi hürufi ideyalar heç də hər yerdə birmənalı qarşılanmamış, müzakirə və mübahisə mövzusu olmuşdur. Mütəfəkkir şairin əleyhdarları bundan istifadə edərək, haqqında müxtəlif böhtan və şayiələr yaymışlar. İmadəddin Nəsiminin məsləyi yolunda faciəli şəkildə edam olunması onun sarsılmaz, möhkəm əqidəsinin isbatıdır. Buna baxmayaraq, İmadəddin Nəsiminin Suriyanın Hələb şəhərindəki məzarı xalq tərəfindən həmişə ehtiramla ziyarət olunmuş və bu məqbərə ibadətgaha çevrilmişdir. Çox təəssüf ki, son dövrlərdə Suriyada gedən acınacaqlı müharibə şəraiti böyük şairin məqbərəsi və məzarı ətrafında da müəyyən dağıntılara səbəb olmuşdur. Azərbaycan ziyalılarının nümayəndə heyəti, tanınmış alimlər və şairlər bir neçə dəfə İmadəddin Nəsiminin məqbərəsini ziyarət etmişlər.




**Nəsimi şəcərəsinin davamçısı Məhəmməd Cövdət (soldan ikinci) ulu babasının Bakı şəhərindəki heykəli önündə. 25 sentyabr 2018-ci il**

Azərbaycanda Seyid İmadəddin Nəsimi irsinin tədqiqi və nəşri sahəsində böyük işlər görülmüşdür. İlk dəfə tanınmış Azərbaycan ədəbiyyatşünası Salman Mümtaz görkəmli sənətkarın irsini toplayaraq kitab halında nəşr etdirmişdir. Sonrakı illərdə şairin zəngin irsi daha geniş səviyyədə toplanılmış, kütləvi tirajla nəşr edilərək xalqımıza çatdırılmışdır. Nəsimi şeirindən müəyyən seçmələr ingilis, rus, fransız, alman, Ukrayna və sair dillərə tərcümə edilib yayılmışdır.

Eyni zamanda, İmadəddin Nəsiminin həyatı və yaradıcılığının tədqiqi istiqamətində mühüm addımlar atılmışdır. Görkəmli Azərbaycan alimi, professor Mirzağa Quluzadə “Böyük ideallar şairi” adlı monoqrafiyasını 1973-cü ildə nəşr etdirmişdir. Professor Cahangir Qəhrəmanovun elmi ictimaiyyətə təqdim etdiyi “Nəsimi divanının leksikası” adlı monoqrafiya və onun hazırlayıb nəşr etdirdiyi elmi-tənqidi mətn Azərbaycan nəsimişünaslığının mühüm nailiyyətlərindəndir. Müxtəlif illərdə tanınmış Azərbaycan alimlərindən akademiklər Həmid Araslı, Bəkir Nəbiyev, Teymur Kərimli, Rafael Hüseynov, AMEA-nın müxbir üzvləri Əliyar Səfərli, Azadə Rüstəmova, fəlsəfə elmləri doktoru Zümrüd Quluzadə, əməkdar elm xadimi Qəzənfər Paşayev, filologiya elmləri doktorları Ənvər Əhməd, Gülşən Əliyeva, filologiya elmləri namizədi Səadət Şıxıyeva və başqalarının əsərləri İmadəddin Nəsimi irsinin tədqiqinə dair sanballı elmi töhfələrdir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 1973-cü ildə anadan olmasının 600 illiyinin yüksək səviyyədə və böyük təntənə ilə qeyd olunması qüdrətli Azərbaycan şairi İmadəddin Nəsiminin şəxsiyyətinə və yaradıcılığına dövlətimizin və xalqımızın bəslədiyi yüksək ehtiramın və ümumxalq məhəbbətinin ifadəsidir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və qayğısı ilə 1979-cu ildə İmadəddin Nəsimiyə onun doğma vətənində, Bakı şəhərinin mərkəzi meydanlarından birində görkəmli heykəltəraşlar Tokay Məmmədov və İbrahim Zeynalovun ucaltdıqları düşündürücü heykəl Azərbaycan monumental heykəltəraşlıq sənətinin qiymətli nümunələrindəndir. Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində AMEA-nın Dilçilik İnstitutuna, Bakı şəhərinin ən böyük rayonlarından birinə və metro stansiyasına İmadəddin Nəsiminin adının verilməsi onun xatirəsinin öz ölkəsində yüksək səviyyədə əbədiləşdirildiyini əks etdirən tarixi reallıqlardır.

Eyni zamanda, xalq şairi Rəsul Rzanın “Son gecə” poemasının yazılması, Qabilin “Nəsimi” poemasının yaranması və Dövlət mükafatına layiq görülməsi, İsa Hüseynovun “Məşhər” romanının, “Nəsimi” filminin xalqa çatdırılması, Bəxtiyar Vahabzadənin “Fərhad” dramının səhnəyə çıxarılması Azərbaycanda görkəmli sənətkara bəslənilən böyük marağın və yüksək ehtiramın real əks-sədasıdır.

Azərbaycan dövləti müstəqillik dövründə də böyük şair İmadəddin Nəsimi irsinin tədqiqi, nəşri və təbliği istiqamətində məqsədyönlü və ardıcıl siyasət həyata keçirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qayğısı ilə 2017-ci ilin may ayında İmadəddin Nəsiminin vəfatının 600 illiyinin Parisdə UNESCO-nun baş iqamətgahında beynəlxalq səviyyədə təntənəli surətdə qeyd edilməsi bu qüdrətli sənətkarı dünyaya tanıtmaq istiqamətində yeni səhifə açmışdır. Prezident İlham Əliyevin “Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında”kı 15 noyabr 2018-ci il tarixli Sərəncamı böyük mütəfəkkir şairə dövlət səviyyəsində bəslənən yeni və yüksək münasibəti aydın surətdə ifadə edir. Dövlət rəhbərinin mühüm tarixi əhəmiyyətə malik olan sərəncamında İmadəddin Nəsiminin şəxsiyyətinə və irsinə verilən aşağıdakı böyük qiymət bu görkəmli mütəfəkkir sənətkarın bənzərsiz sənətinin mahiyyətini və miqyasını dolğun şəkildə əks etdirir: “Nəsimi dünya poeziyasının ən kamil nümunələri sırasında diqqətəlayiq yer tutan əsərlərində daim insanın əzəmətini, insani məhəbbəti və şəxsiyyətin azadlığını tərənnüm etmişdir. Anadilli şeirin humanist ideyalarla, yeni məzmun, deyim tərzi və bədii lövhələrlə daha da zənginləşməsində unudulmaz şairin misilsiz xidmətləri vardır. Nəsiminin mənbəyini xalq ruhundan almış parlaq üslubu orta əsrlər Azərbaycan dilinin məna imkanlarını bütün dolğunluğu və rəngarəngliyi ilə əks etdirir. Sənətkarın yaradıcılığı bir sıra xalqların bədii-ictimai fikrinin inkişafına qüvvətli təsir göstərmişdir”.

Prezident “Azərbaycan Respublikasında 2019-cu ilin “Nəsimi ili” kimi elan edilməsi haqqında” 11 yanvar 2019-cu il tarixli Sərəncamı ölməz sənətkarın həyatı və yaradıcılığının, həmişəyaşar ideallarının daha geniş miqyasda və elmi əsaslarla tanıdılmasına və təbliğ edilməsinə geniş meydan açır. Eyni zamanda, mühüm tarixi əhəmiyyətə malik olan Prezident sərəncamı yeni nəsillərin dönməz məslək və əqidə nümayiş etdirən qüdrətli sənətkarı nümunəsində tərbiyə edilib, azərbaycançılıq ruhunda formalaşdırılmasına göstərilən böyük dövlət qayğısının əməli ifadəsidir. Bütün bunlar həm də böyük Azərbaycan şairi İmadəddin Nəsimi mövzusuna elm, ədəbiyyat və incəsənətin bütün istiqamətlərində yenidən qayıdış baxımından qarşıya yeni vəzifələr qoyur.

Cəmi bir neçə ay bundan əvvəl, 2018-ci ilin sentyabr ayında Bakı şəhərində və Şamaxıda keçirilmiş Nəsimi şeir, incəsənət və mədəniyyət festivalı Nəsimi sənətinin ölməzliyini bir daha sübut etməklə bərabər, həm də bu zəngin bədii irsin tədqiqat və təbliğat baxımından geniş imkanlara malik olduğunu nümayiş etdirmişdir. Festivalın dünyanın müxtəlif ölkələrindən gəlmiş elm, ədəbiyyat və incəsənət xadimlərinin iştirakı ilə keçirilməsi, tədbirlərin Bakı şəhəri ilə yanaşı şairin vətəni Şamaxı şəhərini də əhatə etməsi İmadəddin Nəsimini Azərbaycana və cahana bəxş etmiş bu qədim diyarın özünün böyük oğlu qarşısında mənəvi borcunu ifadə edən möhtəşəm hesabat olmuşdur. Xüsusən, Azərbaycan dövlətinin rəsmi dəvəti və himayəsi ilə İmadəddin Nəsiminin şəcərəsindən olub, hazırda Suriyanın Hələb şəhərində yaşayan və Nəsimi soyadını davam etdirərək yaşadan, Hələbdəki Seyid İmadəddin Nəsimi məqbərəsinin mühafizi Məhəmməd Cövdət Nəsiminin və onun mənsub olduğu ailənin digər üzvlərinin Nəsimi tədbirlərində iştirakının təmin edilməsi, onların ata-baba yurdu Şamaxı şəhərini ziyarət etmələrinə şərait yaradılması, Şamaxı qəbiristanlığında böyük sənətkarın qardaşı Şahxəndanın bu günə qədər qorunub saxlanılmış məqbərəsi ilə tanışlığı mühüm əlamətdar hadisəyə çevrilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 23-24 iyun 2017-ci ildə “Ey Nəsimi, cahanı tutdu sözün” adlı beynəlxalq konfrans keçirməsi və həmin elmi tədbirdə Azərbaycanla yanaşı Rusiya, Hindistan, Türkiyə və Gürcüstan alimlərinin məruzələrlə çıxış etmələri Nəsimi irsinin tədqiqinə müstəqillik dövrü işığında yenidən qayıdış sahəsində mühüm bir addım olmuşdur. 2018-ci ilin noyabr ayında İmadəddin Nəsimi ilə əlaqədar Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində keçirilmiş geniş elmi-mədəni tədbirlər, xüsusən, Moskva Beynəlxalq Münasibətlər İnstitutunun binasında ölməz sənətkarın büstünün açılması onun yeni tarixi şəraitdə dünya şöhrətinin təntənəsini göstərən mühüm hadisə olmuşdur.

Bütün bunlarla bərabər, imzalanmış sərəncamları Azərbaycan alimləri və yazıçılarından, incəsənət xadimlərindən daha sanballı əsərlər yaratmağı tələb edir. Çünki Nəsiminin həyatı və yaradıcılığı azərbaycançılıq ideyalarını, vətənpərvərlik və mənəvi bütövlük tərbiyəsini diqqət mərkəzinə çəkmək üçün tükənməz imkanlara malikdir. Etiraf etməliyik ki, Nəsimiyə həsr olunmuş bədii və elmi əsərlərin yaradılması sahəsində son yarım əsr ərzində yaranmış boşluğun aradan qaldırılması üçün çox iş görülməlidir. Xüsusən, şairin zəngin irsi tam halda çap olunaraq Azərbaycan oxucularına çatdırılmalıdır. Doğrudur, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə İmadəddin Nəsiminin “Seçilmiş əsərləri” böyük tirajla nəşr edilib ölkə miqyasında bütün kitabxanalara göndərilmişdir. Son vaxtlarda professor Qəzənfər Paşayevin yenidən təkmilləşdirilmiş şəkildə nəşr etdirdiyi Nəsiminin İraq divanı və naməlum şeirləri, AMEA Əlyazmalar İnstitutunda əldə olunmuş yeni əlyazma nüsxələri şairin irsinin toplanması və nəşri işinə daha geniş miqyasda bir daha qayıtmağın zəruriliyini nəzərə çarpdırır.

Ümumiyyətlə, Azərbaycan elmi Nəsiminin tədqiq olunmasına bir daha baş vurmağa borcludur. İmadəddin Nəsimiyə həsr olunmuş professor Mirzağa Quluzadənin “Böyük ideallar şairi” monoqrafiyası 1973-cü ildə, 45 il bundan əvvəl yazılmışdır. Ötən dövr ərzində əldə edilən yeni əlyazmaları, ədəbi-tarixi sənədlər və xüsusən ölkəmizin dövlət müstəqilliyi qazanması ilə əlaqədar dəyişən zaman Nəsiminin dövrü və həyatını, zəngin irsini, sənət ənənələrini bütün reallıqları ilə birlikdə dərindən və əsaslı şəkildə tədqiq edib meydana qoymağı tələb edir. Həmin istiqamətdə AMEA Ədəbiyyat və Şərqşünaslıq institutlarında aparılan elmi-tədqiqat işlərinin miqyası genişləndirilməli, nəzəri səviyyəsi dərinləşdirilməlidir. İmadəddin Nəsimi haqqında xarici dillərdə tanıtma kitablarının hazırlanıb çap olunmasına böyük ehtiyac var. Eyni zamanda, şairin əsərlərinin xarici dillərə tərcümə edilib, kitab halında nəşr olunması dövlət sərəncamlarının və yeni zamanın qarşımıza qoyduğu zəruri tələblərdəndir. Bundan başqa, Nəsiminin həyat və yaradıcılığının ali və orta məktəblərdə tədrisi, dərsliklərdə tutduğu yer məsələlərinə də yenidən qayıtmağa borcluyuq.

Bütün dünya bu reallığı bir daha bilməlidir ki, İmadəddin Nəsimi cahana və zamana sığmayan, əbədiyaşar Azərbaycan şairidir.

Nəsimi Azərbaycan ədəbiyyatı və ictimai fikri qarşısındakı böyük xidmətləri ilə ölməzlik qazanmış qüdrətli sənətkardır.

İmadəddin Nəsiminin ölməz irsi Azərbaycan xalqının milli-mənəvi varlığının və böyük ideallarının, duyğu və düşüncəsinin zəngin və tükənməz xəzinəsidir. Azərbaycan xalqı məhz həmin möhkəm milli-mənəvi dayaqlar və davamlı böyük ənənələr əsasında zaman-zaman formalaşma və dirçəliş mərhələləri keçərək, indiki yüksək inkişaf səviyyəsinə gəlib çatmışdır.

Möhtərəm Prezident İlham Əliyevin imzaladığı mühüm sərəncamların işığında biz, Azərbaycan alimləri və yaradıcı ziyalıları elan olunmuş “Nəsimi ili”nin ölkəmizdə klassik ədəbi-mədəni irsin, görkəmli ədəbi-tarixi şəxsiyyətlərimizin, böyük mütəfəkkirlərimizin, xüsusən də İmadəddin Nəsiminin həyatı və fəaliyyətinin öyrənilməsi, xalqa çatdırılması, böyük dönüş ilinə çevrilməsi üçün çox iş görməli, bütün qüvvələri səfərbər etməliyik.

Azərbaycan Respublikasının xalq şairi Qabilin “Nəsimi” poemasından gətirdiyimiz aşağıdakı misralar böyük Azərbaycan şairi İmadəddin Nəsiminin ölməz sənətinə bəslənilən tükənməz məhəbbəti dərin mənası ilə ifadə edir:

Sinəm qalxıb-enir ümmanlar kimi,
Seyrinə daldıqca bu xoş səhərin.
Gün kimi qalxırsan, babam Nəsimi,
Yaqut qübbəsindən sonsuz göylərim.

Axı kim deyir ki, bizdən uzaqsan,
Çox da görünmürsən göz qabağında.
Sən qövsi-qüzehsən, parlayacaqsan
Sənət göylərinin sonsuz tağında.

Bayrağa çevrildin, qanlı bayrağa,
Axıb üz-gözünü örtdükcə qanın.
Elə bil boylanıb baxdın uzağa,
Uzaq sabahına Azərbaycanın!

**İsa HƏBİBBƏYLİ,**
***AMEA-nın vitse-prezidenti, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik***

Qış turizmi



# İstirahət qışda da gözəldir





*Əvvəli 1-ci səh.*

İstər Kiçik Qafqazın, istərsə də Böyük Qafqazın qarlı əraziləri, habelə digər yerlər - dəyərli məkan hər yerdə gözəldir. Odur ki, ölkəmizə gələn turistlər istədiyi kimi dincələ bildiyindən gəzməli yerləri gördükcə "bir də bu yerlərə gəlməyə dəyər" deyə istirahətlərindən razı qalırlar. Çünki son 15 ildə Azərbaycanın iqtisadi qüdrətinin artması və müasir tələblərə cavab verən infrastrukturun yaradılması qış turizminin inkişafına da səbəb olmuşdur. Təsadüfi deyil ki, ötən il Azərbaycana 6 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Gələnlərin 31,2 faizi Rusiya, 19,8 faizi Gürcüstan, 10,0 faizi Türkiyə, 9,2 faizi İran, 3,3 faizi Birləşmiş Ərəb Əmirlikləri, 3 faizi Səudiyyə Ərəbistanı, 2,7 faizi İraq, 2 faizi Ukrayna, 1,5 faizi İsrail, 17,2 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olub.

Gələnlərin 65,3 faizini kişilər, 34,7 faizini isə qadınlar təşkil edib. Körfəz ölkələrindən (Birləşmiş Ərəb Əmirlikləri və İran istisna olunmaqla) gələnlərin sayında daha çox artım müşahidə edilib. Əvvəlki illərlə müqayisədə ötən il ölkəmizə gələn Bəhreyn vətəndaşlarının sayı 2,2, Səudiyyə Ərəbistanı vətəndaşlarının sayı 2,1, Küveyt vətəndaşlarının sayı 2, Qətər vətəndaşlarının sayı 1,7 dəfə, İraq vətəndaşlarının sayı 14,4, Oman vətəndaşlarının sayı 7,6 faiz artıb. Ümumilikdə Körfəz ölkələrindən 467,8 min nəfər gəlib. Turistlərin demək olar ki, hər beş nəfərindən biri bu ölkələrin vətəndaşları olub. Onu da qeyd edək ki, ötən il Azərbaycanın gözəl guşələrindən olan Naxçıvan Muxtar Respublikası xarici ölkələrdən ümumilikdə 380 mindən çox turist qəbul etmişdir.

Müşahidələrdən məlum olur ki, qış aylarında ölkəmizə istirahətə gələnlərin sayı ildən-ilə artmaqdadır. Qış turizmi ölkəmizdə yeni sayılsa da, hələ sovet dönəmində də turizmin bu növünə maraq göstərənlər çox olub. Misal üçün, o vaxtlar Şamaxı rayonunda, Pirqulu rəsədxanasının yaxınlığındakı ərazi, eləcə də rayonlarda, dağlıq və dağətəyi ərazilərdə müəyyən dərə-təpə xizək sürmək istəyənlər tərəfindən istifadə olunurdu. Bir çox həvəskarlar isə bu turizm növü ilə məşğul olmaq üçün qış fəslində müxtəlif xarici ölkələrə, o cümlədən qonşu Rusiya və Türkiyəyə səfərlər edirdilər.

Amma indi ölkəmizin bir neçə yerində qış turizmini maraqlı keçirmək üçün məkanlar yaradılıb. Belə ünvanlardan biri də nəinki respublika əhalisinin, dünyanın bir çox ölkələrinin maraq göstərdiyi Qusar rayonunda fəaliyyətdə olan "Şahdağ" Qış-Yay Turizm Kompleksidir. Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva bir neçə dəfə burada olublar. Prezidentin iştirakı ilə kompleksdə bir sıra infrastruktur obyektlərinin açılışı keçirilib. Burada təkcə qışda deyil, ilin hər fəslində istirahət üçün imkanlar yaradılıb. "Şahdağ" layihəsi çərçivəsində xizək yolları yaradılıb, avtomobil yolları genişləndirilib, körpülər tikilib və lazımi avadanlıqlar quraşdırılıb. Dəniz səviyyəsindən 1300-2300 metr yüksəklikdə yerləşən bu turizm kompleksi bütün müasir standartlara cavab verir və bu məkan ölkəmizdə qış turizminin inkişafı üçün əsas baza rolunu oynayır. Təsadüfi deyil ki, indi bu kompleks müasir dövrdə yaradılmış ən möhtəşəm qış-yay komplekslərindən sayılır. Onun istifadəyə verilməsindən sonra ölkəmizdə qış turizminə böyük maraq yaranıb. Digər tərəfdən, qış turizmi əksər insanlarımız üçün yeni sahə olduğundan burada istirahət cəlbedici görünür. Odur ki, dünyanın bir çox ölkələrindən turistlər bu kompleksə xizək sürmək üçün səfər edirlər. Turistlərlə söhbətlərdən məlum oldu ki, bu il çox sayda peşəkar xizəkçi istirahət üçün məhz buranı, Şahdağı seçib. Qeyd edək ki, xizək sürməyi bacarmayanlar da var. Onların istəyini reallaşdırmaqda peşəkar xizəkçi-təlimçilər əllərindən gələn köməyi edirlər. Kompleksdə yaradılan şərait ölkədə qış turizminin inkişafı üçün əsas amillərdən sayılır. Buraya gələn turistlər yaradılan şəraitdən məmnun olduqlarını bildirirlər. Bütün bunlar əminlik yaradır ki, cari ildə qış turizmi ilə bağlı ölkəyə gələnlərin sayı daha da artacaq.

- Mən əslən moskvalıyam, ali təhsilli mühəndisəm, həyət yoldaşım Antonina İvanovna isə müəllimdir. Qızım Laura pedaqoji institutun birinci kurs tələbəsidir. İki il bundan öncə yayda Bakıda, Xəzərin qumlu sahilində ailəliklə istirahət etmişdik. Yayda Laura ali məktəbə hazırlaşdığından biz elə qərara almışdıq ki, o, ali məktəbə qəbul olandan sonra qışda, tələbələrin istirahəti ərəfəsində on günlüyə Azərbaycana, məxsusi olaraq Qusara - "Şahdağ" Turizm Kompleksinə gələk. Bu, qızımın ali məktəbdə əla qiymətlərlə oxuduğuna görə hədiyyəmizdir", - deyə Nikolay İvanov onu da bildirdi ki, burada yaxşı dincəlir, istirahət edir və Moskva ətrafında olduğu kimi, yoruluncayadək xizək sürürük. Ailə planlaşdırmamızda var ki, yayda on günlüyə də olsa Xəzərin sahilinə qonaq gedək... Ölkəniz gözəldir, burada gəzmək, festivallara qatılmaq və mənalı istirahət etmək çox xoşdur, nə Bakıdan, nə Bakı bulvarından, nə də tarixi abidələrinizdən doymaq olmur.

Bir neçə həftə ərzində kompleksə 600-ə yaxın turist gəlib-gedib. Şamaxıda və ətraf kəndlərdə fərdi qaydada dincələnlər, xizək sürməyə gələnlər də çoxdur. Bəzi vətəndaşlar kompleksə səfər etməklə tədricən təcrübə qazanır, xizək sürmək vərdişinə, qaydalarına yiyələnirlər. Çünki turizmin bu növündə təcrübə də böyük əhəmiyyət daşıyır. Ölkəmizdə turizmin inkişafına göstərilən qayğı öz müsbət təsirini göstərir. Ötən il Şamaxıya 119 min 300 turist gəlmişdir ki, bu da 2017-ci ildəkindən 7800 nəfər çoxdur. Bölgədə 30 turist obyekti fəaliyyət göstərir. Bunlardan 3-ü hotel, 15-i istirahət mərkəzi, 12-si restorandır. Rayonda son illər qış turizmi sürətlə inkişaf etməkdədir. Şərait yaxşı olduğundan rayona gələn istər yerli, istərsə də xarici turistlərin bir hissəsi kənd evlərini seçirlər. Ən çox turistlərin qaldıqları kənd evləri Çuxuryurd, Nağaraxana, Məlhəm, Dəmirçi yaşayış məntəqələrindədir. Xarici turistlərin sayı əvvəlki illə müqayisədə 4 faiz artıb. Keçən il ən çox turist MDB ölkələri, Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə, İran, Asiya ölkələri, Fransa və Almaniyadan olub. Turistlər asudə vaxtlarında xizək sürməklə yanaşı, həm də Heydər Əliyev Mərkəzinə, Astrofizika Rəsədxanasına, Dəmirçi kəndində Tarix-Diyarşünaslıq Muzeyinə, Cümə məscidinə, Yeddi Günbəz abidəsinə, Şahxəndan Türbəsinə, Pir Mərdəkan Xanəgahına, Gülüötan qalasına və Buğurd qalasına böyük maraq göstərirlər.

Azərbaycanın digər bölgələrində də qış turizminin inkişafı üçün mövcud imkanlardan istifadə etməyə çalışırlar. Bu, həm də ölkəmizdə qış idman növlərinin yayılması və usta idmançıların yetişməsi üçün də vacibdir.

Qış turizmi dünyanın inkişaf etmiş ölkələrində böyük maraq cəlb edən, həm gəlirinə, həm də perspektivlərinə görə fərqlənən sahədir. Dövlət başçısının fərman və sərəncamlarının tələbləri baxımından bu sahəyə xüsusi diqqət yetirilir. Qəbələ rayonunda da xizək bazasının yaradılması planlaşdırılır. Bundan başqa, Gədəbəy və Zaqatalada da qış turizminin inkişafı üçün geniş potensial var və bu yerlərdə də xüsusi bazanın yaradılması gözlənilir.

***Rəhman SALMANLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***



# Media nümayəndələri BSU-da imtahanların gedişini izləyib





Yanvarın 15-də Bakı Slavyan Universitetində (BSU) qış imtahan sessiyası ilə bağlı ölkənin tanınmış KİV nümayəndlərinin iştirakı ilə mediatur keçirildi. Tədbirdə "Azərbaycan", "Yeni Azərbaycan", "Azərbaycan müəllimi", "İki sahil", "525-ci qəzet", "Həftə içi", "Səs", "Kaspi" qəzetlərinin, "AZƏRTAC" Dövlət İnformasiya Agentliyi, "Trend" İnformasiya Agentliyi, Faktinfo.az saytı, Moderator.az, Eduaz.az, Tehsilpress.az saytlarının nümayəndələri iştirak etdilər. İştirakçıları əvvəlcə BSU-nun rektoru, professor Nurlana Əliyeva qəbul etdi və onlara imtahan sessiyası ərəfəsində universitetdə aparılan işlər, imtahanlara hazırlıq barədə məlumat verdi. Rektor universitetdə 2018-2019-cu tədris ilinin qış imtahan sessiyasının uğurla davam etdiyini diqqətə çatdırdı. Bildirdi ki, təhsil nazirinin imtahan sessiyasının təşkili və keçirilməsi barədə imzaladığı əmrinə əsasən, imtahanlar mövcud qaydalara uyğun keçirilir, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflıq və obyektivlik təmin olunur.

N.Əliyeva məlumat verdi ki, BSU-da artıq 357 fənn üzrə imtahan təşkil olunub. Rektor bildirdi ki, hazırda universitetin əsas və ikinci tədris binasında ümumi 44 auditoriyada imtahan keçirilir və onlardan 33-ü əsas binada, 11-i ikinci tədris binasında aparılır. Rektor imtahan sessiyası ərəfəsində hər bir kursun tələbələri ilə ayrı-ayrılıqda görüş keçirdiyini, onlara tövsiyələr verildiyini, imtahanlarda biliyin yeganə meyar olmasının izah edildiyini dedi. Professor N.Əliyeva imtahanlara hazırlıq üçün universitetdə hər cür lazımi şəraitin yaradıldığını, məsləhət saatlarının keçirildiyini diqqətə çatdırdı.

Rektor BSU-da keçirilən imtahanların yazılı şəkildə aparılmasının tələbələrin orfoqrafik normalara düzgün əməl etməsində mühüm rol oynadığını nəzərə çatdırdı: "Prezident İlham Əliyev 1 noyabr 2018-ci il tarixində "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fərman imzalayıb. Dövlət başçısının fərmanına əsasən, BSU-da yazılı şəkildə aparılan imtahanlarda tələbələrin Azərbaycan dilinin orfoqrafik normalarına düzgün əməl etməsinə xüsusi diqqət göstərilir. Ana dilinin qaydalarına düzgün əməl olunmaması tələbənin imtahan balına təsir edir".

N.Əliyeva qeyd etdi ki, imtahan prosesində operativliyin təmin edilməsi və şəffaflığın artırılması məqsədilə BSU-nun tədris işləri üzrə portalının "Modul 3" bölməsində bütün kurslar üzrə imtahaların nəticələri dərhal elan olunur. Vurğuladı ki, həmin saytda yaradılmış onlayn əlaqə bölməsindən təkcə tələbələr deyil, valideynlər də istifadə edərək onları maraqlandıran hər bir sualla bağlı dolğun cavab ala, imtahan qərargahı ilə birbaşa əlaqə yarada bilərlər. Rektor universitetdə imtahan sessiyasının mövcud qaydalara uyğun təşkili, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığın və obyektivliyin təmini, daxil olan şikayətlərin qısa zamanda araşdırılıb, müvafiq qərarların qəbul edilməsi üçün operativ qərargah və münaqişə komissiyası yaradıldığını bildirdi.

Sonra qonaqlar operativ qərargahın işi ilə tanış oldular. Qərargahın rəhbəri, professor Habil Məmmədov KİV nümayəndələrinə qərargahın iş prinsipi, tətbiq olunan yeniliklər, şikayətlərin qəbul edilməsi, cavablandırılması və digər məsələlər barədə ətraflı məlumat verdi.

Media nümayəndələri 3-cü, 4-cü və 5-ci mərtəbələrdə yerləşən auditoriyalarda imtahanların gedişini izlədilər. Onlar burada kameraların, ağıllı lövhələrin də iş prinsipləri ilə tanış oldular. Jurnalistlər imtahanların gedişinə mane olmamaq şərti ilə imtahan aparan müəllim və nəzarətçilərdən müsahibə aldılar.

Görüşün sonunda jurnalistlərin imtahan sessiyası ilə bağlı təəssüratları dinlənildi.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Erməni mafiyası dünya üçün təhlükəyə çevrilib

10 il əvvəl alman kansleri Merkel demişdi ki, Qarabağ məsələsinin həllinin tapılmaması bizim üçün təhlükəlidir. Kansler o zaman bu təhlükələrin nədən ibarət olduğunu açıqlamamışdı. Amma bu münaqişəni körükləyən Qorbaçovun erməni əsilli məsləhətçiləri dərinləşən münaqişənin zəminində dünyanın əksər ölkələrində erməni mafiyasının real gücə çevrilməsinə təkan verdilər. Erməni "demokratiyasına" sığal verən Avropa isə bilərəkdən, ya da bilməyərəkdən erməni mafiyasının çiçəklənməsinə imkan yaratdı.

AFR hökuməti "Almaniya üçün Alternativ" Partiyasının parlament sorğusuna cavabında ölkədə erməni mafiyasının fəaliyyəti ilə bağlı bəzi məsələlərə aydınlıq gətirmək məcburiyyətində qalmışdır. Sənəddə qeyd olunur ki, alman dövləti ermənilərin təşkil etdiyi mütəşəkkil cinayətkar qrupları (MCQ) Rusiya-Avroasiya mütəşəkkil cinayətkarlığının daha geniş kontekstində nəzərdən keçirir. Etiraf edilir ki, erməni MCQ "Rusiya-Avroasiya" mütəşəkkil cinayətkarlığına qarşı mübarizə çərçivəsində 2017-ci ildə qaldırılan cinayət işlərinin sayına görə dördüncü yeri tutur. Əvvəlki üç yer Litva, Almaniya və Rusiya vətəndaşlığı olan şəxslərə məxsusdur. AFR hökumətinin cavabında bildirilir ki, erməni MCQ ölkənin şimalında və şərqində daha geniş yayılmışdır. Həmçinin alman hökumətinə məlumdur ki, erməni cinayətkar qruplaşmaları ayrı-ayrı hallarda İtaliya mafiyası ilə əməkdaşlıq edirlər. Bu barədə bu il yanvarın 7-də Rusiyanın "Vestnik Kavkaza" saytı məlumat verir.

Amma narahatçılıq doğuran odur ki, erməni mafiyasının özbaşınalıqları haqqında Rusiyadan savayı Almaniya KİV-i də demək olar ki, hər il mütəmadi çıxışlar edirlər. AFR-in Erfurt şəhərində iki erməni qruplaşmaları arasında 2014-cü ildə baş verən atışma geniş ictimai əks-səda doğurmuşdu. Bundan sonra Almaniya hüquq-mühafizə orqanları Ermənistandan gələn mühacirlərə xüsusi diqqət yetirməyə başladılar və ölkədə erməni kriminalitetin fəaliyyətini araşdırmağı təmin edən FATIL xüsusi istintaq qrupu yaradıldı.

Ötən il isə "SPIEGEL" və "MDR"dən bir qrup jurnalistin əlinə Almaniyanın kriminal polisinin Federal idarəsinin qapalı hesabatı düşüb. KİV-in bəyanatında birbaşa etiraf edilir ki, "Almaniyada erməni mafiyası var, o da hüquqi dövlət üçün təhlükə törədir". Alman jurnalistləri hətta Ermənistanın AFR-dəki səfiri Aşot Smbatyanın belə erməni kriminal strukturları ilə əlaqələri barədə məlumatları açıqlayırlar.

Bundan başqa, jurnalistlərə o da məlum olub ki, alman hüquq-mühafizə orqanları şəxsən Smbatyan və həm də bütünlükdə Ermənistan səfirliy ilə erməni mafiyasının əməllərinin araşdırılması məsələlərində əməkdaşlıqdan imtina etmişlər. Belə ki, alman kəşfiyyatının şəxsən Smbatyanın "qanuni oğru" olmasından, çirkli pulların yuyulmasında və qaçaqmalçılıqda iştirak etməsindən şübhələnməyə ciddi əsasları vardır.

Aşot Smbatyanın əlaqələrindəki yeni faktlar 2018-ci ilin payızında "MDR"-in reportajında işıq üzü görməli idi, lakin səfir "onun nüfuzunu ləkələyən" məlumatların öncədən yayılmasına məhkəmə qaydasında qadağa qoymağa nail olub. Məhkəmə son qərarını verənədək işlə bağlı detallar açıqlanmayacaq. Səfirin erməni mafiyası ilə "qohumluğu" AFR telekanallarının diqqət mərkəzindədir. Alman ictimai televiziyasının nümayəndələri, öz növbəsində, artıq bildiriblər ki, araşdırmalara tam hazırdırlar və qadağanın ləğvinə məhkəmə qaydasında nail olunacaq.

Bundan əvvəl hələ ötən ilin noyabrında "DerSpiegel" və "MDR" nəşrləri Almaniyada erməni mafiyasının İtaliya mafiyası ilə əlaqələrini üzə çıxaran araşdırmalarını dərc ediblər.

Almaniyadakı erməni mafiyası dünyanın ən güclü cinayətkar təşkilatlarından biri sayılan "Ndranqetoy" təşkilatı ilə əməkdaşlıq edir. AFR-in ən nüfuzlu qəzetlərindən sayılan "DerSpiegel"in və "Mitteldeutscherrundfunk" alman ictimai teleradio şirkətinin son araşdırmaları bu faktı təsdiq edir.

"2014-cü ilin fevralında qara rəngli dəbdəbəli avtomobil AFR-in Erfrut şəhərində qeydiyyata alınan nömrə ilə Neapol küçələrində dövrə vururdu, - deyən alman jurnalistləri sərnişinlərin erməni, gənc rumın qadın və iki italiyalının olduğunu yazırlar. Əgər onlar niyyətlərini həyata keçirə bilsəydilər, bu gün Almaniyada 126 min avroluq saxta əsginas artıq dövriyyəyə buraxılmışdı".

Jurnalist araşdırmalarına əsasən, bu cinayətkar planı maşını saxlayan və axtarış apararkən saxta avro aşkar edən iki italyan polisi aşkar edir. Alman jurnalistləri onlarda bu axtarışla bağlı İtaliya polisi tərəfindən tərtib edilmiş protokolun sərəncamının surətinin olduğunu bildirirlər: "Neapolda saxlanılanlar yoldaşları ilə birlikdə bir neçə gündən sonra maneəsiz ölkəni tərk edə biliblər".

İnsidentdən bir neçə həftə sonra məlumat alman polisinə ötürülür və ciddi narahatlığa səbəb olur. Belə ki, bir neçə ay əvvəl artıq alman polisi saxta əsginasları dövriyyəyə buraxan bir neçə ermənini izləyirmiş. Neapolda saxlanılan ermənilərdən biri erməni mafiyası ilə əlaqələrdə və saxta əsginasların satılmasında şübhəli bilinənlərin siyahısında idi. Xüsusi araşdırmasını aparan "DerSpiegel" yazır: "Sonuncular əslində İtaliyada yox, Hanoverdə qohumları ilə yaşayır və bu qohumluq əlaqələrinin izi dünyanın ən nüfuzlu mafioz qruplarından biri "Ndranqetoy" təşkilatına gedib çıxır.

"Erməni və İtaliya mafiyasının əməkdaşlıq etmələri barədə şübhələr o qədər də yeni deyil" - deyərək "DerSpiegel" izah edir ki, hələ bir neçə il öncə erməni mafiyasının güman edilən üzvləri əvvəllər erməni mafiyasına aid olan yerli italyan restoranlarından birini nəzarətə götürmüşdülər. Alman jurnalistləri araşdırmalarında onu da üzə çıxara bilirlər ki, Neapolda saxlanılan erməni və iki italiyalı bu gün də bir-birləri ilə əlaqə saxlayır və görüşürlər də".

Erməni mafiyasının müxtəlif ölkələrdə mövcudluğunu heç kim şübhə altına almır. Məsələn, Karaqanda vilayətində 2019-cu il yanvarın 1-də "Qədim Roma" restoranında 23 yaşlı qazaxı qətlə yetirən üç ermənininin də mafioz erməni qrupları ilə əlaqəsi danılmazdır. Bütün Qazaxıstanı çalxalayan bu hadisə erməni mütəşəkkil cinayətkar dəstələrinin həm erməni diasporu, həm də bir sıra dövlətlərin təhlükəsizlik qurumları ilə sıx bağlılıqlarının mövcudluğunu ortaya qoyur. Qarabağ hadisələrində xaricdən sürü ilə gələn erməni cinayətkar dəstələrinin birbaşa silahlanaraq xüsusi qəddarlıqla döyüşlərə atılması, bundan başqa, Sumqayıtda, Özbəkistanın Fərqanə vilayətində, Qırğızıstanın Oş şəhərində çox sayda insanların xüsusi amansızlıqla qətlə yetirilməsi erməni mafiyasının nə qədər qəddar olmasını ortaya qoyur. "Qədim Roma" restoranındakı hadisədən sonra erməni diasporunun, Ermənistanın Qazaxıstandakı səfirinin və rəsmi İrəvanın təcili əl-ayağa düşməsi, bəyanatlar verməsi bütün bəşəriyyət üçün real təhlükə sayılan erməni mafiyasının əməllərini ört-basdır etməkdən, mütəşəkkil cinayətkar dəstələrin düşünülmüş siyasi qətllərini təsadüf kimi təqdim etməyə yönələn cəhdlərdən başqa bir şey deyil. Əksinə, bu faktlar ilk növbədə postsovet məkanında silsilə məqalələrin hazırlanmasını zərurətə çevirir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Bakıda xalq rəssamı Arif Əzizin 75 illik yubileyinə həsr olunmuş sərgi açılıb





Yanvarın 15-də Muzey Mərkəzinin sərgi qalereyasında xalq rəssamı, Dünya Rəssamlıq Akademiyasının Bakı nümayəndəliyinin rəhbəri, Mədəniyyət və İncəsənət Universitetinin professoru, "Şöhrət" ordenli Arif Əzizin və tələbələrinin "Maestro end Artists" adlı sərgisi açılıb.

AZƏRTAC xəbər verir ki, rəssamın 75 illik yubileyinə həsr olunmuş sərgidə onun və 100-ə yaxın tələbəsinin əsəri nümayiş edilib.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru Ceyran Mahmudova Arif Əzizin həyat və fəaliyyətindən söz açıb. Bildirib ki, o, 1971-ci ildən bugünədək Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyətlə məşğuldur. Arif Əziz 48 il ərzində yüzlərlə rəssam, dizayner, qrafik, xalçaçının yetişməsinə böyük əmək sərf edib.

Tədbirdə çıxış edən mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev müasir Azərbaycan incəsənətində Arif Əzizin yaradıcılığının xüsusi, müstəsna yeri olduğunu deyib: "Ötən əsrin 70-ci illərindən başlayaraq Arif Əziz dizayn, dekorativ-tətbiqi sənət, bədii tərtibat, kitab qrafikası, teatr dekorasiyası, moda, rəngkarlıq sahələrində çalışaraq Azərbaycan incəsənətinin müasir vəziyyətinin formalaşmasına böyük təsir göstərib. İlk bədii təhsilini Bakıda, Əzim Əzimzadə adına Rəssamlıq məktəbində alıb, daha sonra isə Moskvada S.Q.Stroqanov adına Ali Bədii-Sənaye Məktəbində "Qrafik dizayn" ixtisası üzrə davam etdirib. Uzun yaradıcılıq yolu keçən Arif Əziz zəhmət və istedadı nəticəsində çox böyük uğurlara imza atıb. Bugünkü sərgi rəssamın keçdiyi yola nəzər salır və onun ötən illər ərzində yaratdığı bənzərsiz sənət əsərlərinin daha geniş auditoriyaya çatdırılmasına xidmət edir".

Bildirilib ki, Arif Əzizin fərdi üslubu, daim yaradıcılıq transformasiyalarına və bədii eksperimentlərə meyilliliyi, zamanın və məkanın təsirindən səmərəli istifadəsi, fəaliyyətinin istər manera, istər texniki aspektdə çoxsahəliliyi və ən əsası, sonsuz dinamikası, çevikliyi və müasirliyi mütləq tərzdə onun sənətinin və şəxsiyyətinin aktuallığını müəyyən edir.

Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov ölkəmizdə sənət adamlarına göstərilən diqqət və qayğıdan danışıb. Bu gün Azərbaycanın yaradıcı adamlarının dünyanın ən nüfuzlu salonlarında çıxış etdiyini, sərgilər açdığını söyləyib.

Arif Əzizin yaradıcılığını yüksək qiymətləndirən Fəttah Heydərov onun uzun illər pedaqoji fəaliyyətlə məşğul olduğunu və yüzlərlə gəncə sənətin sirlərini öyrətdiyini söyləyib.

Tədbirdə xalq rəssamı Səlhab Məmmədov, "Dədə Qorqud" Milli Fondunun prezidenti Eldar İsmayılov, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dekanı, sənətşünaslıq üzrə fəlsəfə doktoru Sevil Kərimova və başqaları çıxış edərək rəssama ən xoş arzularını çatdırıblar.

Rəssama "Dədə Qorqud" Milli Fondunun medalı təqdim olunub.

Sonda tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkür edən Arif Əziz əməyinə verilən yüksək qiymətə görə ölkə başçısına minnətdarlığını bildirib və bundan sonra da Azərbaycan incəsənətinin inkişafı naminə əzmlə çalışacağını söyləyib.

Sonra iştirakçılar sərgi ilə tanış olublar.

Qeyd edək ki, Arif Əzizin 75 illik yubileyi çərçivəsində təşkil edilən silsilə sərgilər sırasında hazırkı ekspozisiyanı üslub və janr əlvanlığından asılı olmayaraq xarakterizə edən əsas, prinsipial amil rəssamın bugünədək tələbələrinə öyrətdiyi səmimiyyətdir. Konseptual sərgi silsiləsini davam edən "Maestro end Artists" qrup sərgisi, rəssamın yubileyi çərçivəsində Azərbaycan və onun hüdudlarından kənarda təşkil olunan tədbirlər sırasında unikal mahiyyətli bir layihədir. Müasir incəsənətimizin yeni formatlı sərgisində rəssam-maestro öz tələbələrinin əhatəsində təqdim olunur.


## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 11.12.2018-ci il tarixdə keçirilmiş 2 LOT üzrə "Bakı Metropoliteni" QSC üçün müxtəlif növ elektrik mallarının və stansiyalarda təmizlik işləri xidmətinin açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə LOT-2 stansiyalarda təmizlik işləri xidmətinin alınması üzrə "Tais İKF" MMC qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə ƏDV daxil 1 999 994,08 (bir milyon doqquz yüz doxsan doqquz min doqquz yüz doxsan dörd manat 08 qəpik) manat məbləğində 11.01.2019-cu il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***


# Atəşkəs rejimi 30 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini 30 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Aşağı Əskipara, Gədəbəy rayonunun Göyəli kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Tağıbəyli, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.


## B İ L D İ R İ Ş

İtaliya Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyi 14 yanvar 2019-cu il tarixində səfirliyin rəsmi internet səhifəsində "İtaliyaya giriş vizası ilə bağlı xidmətlərin göstərilməsi üzrə" autsorsinq elanına dəyişiklik etdiyini bildirir.

Dəyişikliklə bağlı ətraflı məlumatı bu linkdən əldə edə bilərsiniz: **https://ambbaku.esteri.it/-Ambasciata_Baku/it/informazioni_e_servizi/amministrazione%20trasparente/bandi-di-gara.html**

**İtaliya Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyi**


# Tibb xidmətinin rəhbər heyəti ilə təlim-metodiki toplanış keçirilib

Yanvarın 15-də Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin, tibb hərbi hissə və müəssisələrinin komandirləri (rəisləri), birlik və birləşmələrin tibb xidməti rəislərinin iştirakı ilə 2018-ci tədris ilinin yekununa həsr olunmuş təlim-metodiki toplanış keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə ümummilli lider Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Toplantıda çıxış edən müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyev bildirib ki, ötən il ərzində ordu quruculuğunun bütün istiqamətlərində olduğu kimi, hərbi tibb sahəsində də qarşıya qoyulan tapşırıqlar uğurla yerinə yetirilib. Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində hərbi qulluqçuların sosial-məişət şəraitinin gündən-günə yaxşılaşdırılması istiqamətində həyata keçirilən işlər davam etdirilir.

Nazir müavini görülən tədbirlərin ordumuzda şəxsi heyətin sağlamlığının qorunmasında müstəsna rol oynadığını, eyni zamanda, xəstəliklərin vaxtında aşkarlanması və profilaktik işlərin aparılması üçün həkimlərin üzərinə böyük məsuliyyət düşdüyünü qeyd edib.

General-leytenant K.Vəliyev hərbi həkimlərin bundan sonra da vəzifələrinin öhdəsindən bacarıqla gələcəklərinə əminliyini ifadə edərək, 2019-cu ildə tibb sahəsində görüləcək işlərlə bağlı müdafiə nazirinin müvafiq tapşırıqlarını vəzifəli şəxslərə çatdırıb.

Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev çıxışında 2018-ci ilin hazırlıq planına uyğun olaraq şəxsi heyətin tibb təminatına aid nəzərdə tutulmuş tapşırıqların bütövlükdə yerinə yetirildiyini, tibb hərbi hissə və müəssisələrin müasir diaqnostik cihazlarla komplektləşdirilərək xəstələrin tam müayinə olunmasına imkan yaradıldığını vurğulayıb.

Sonra tədbirdə 2018-ci tədris ilinin yekununa əsasən müalicə-profilaktika işinin vəziyyəti, bu sahədə görülən işlər və həyata keçirilən tədbirlərin nəticələri barədə məruzələr dinlənilib, 2019-cu ildə qarşıda duran vəzifələr müzakirə edilib.

# Bu gün ölkə ərazisində 15 dərəcə isti olacaq




Azərbaycanda yanvarın 16-na gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Səhər bəzi yerlərdə zəif duman olacaq. Arabir güclənən cənub-qərb küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 4-7°, gündüz 10-15° isti, Bakıda gecə 5-7°, gündüz 12-14° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı - 757 millimetr civə sütunundan 752 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 65-75, gündüz 50-60 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Ayrı-ayrı yerlərdə duman olacaq. Cənub-qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 10-15° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 5-10° isti olacağı gözlənilir.

Sinoptiklərin xəbərdarlığına görə, yanvarın 16-da Bakıda və Abşeron yarımadasında, Azərbaycanın bəzi rayonlarında cənub-qərb küləyinin əsəcəyi, arabir güclənəcəyi gözlənilir.

Tibbi-meteoroloji proqnoza əsasən, yanvarın 17-18-də Abşeron yarımadasında çox güclü xəzri küləyinin əsəcəyi və havanın temperaturunun ötən günlərlə müqayisədə 10° enəcəyi proqnozlaşdırılır. Hava şəraitinin belə kəskin dəyişməsi əksər əhali üçün çox əlverişsizdir.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 0-5°, dağlıq ərazilərdə 8-10° şaxta, gündüz 5-10° isti olacağı proqnozlaşdırılır.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcərdə, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Cənub-qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 0-5° şaxta, gündüz 5-10° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman olacaq. Cənub-qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 10-15° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Cənub-qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 9-14° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 4-9° isti olacağı ehtimalı var.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Cənub-qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 0-5° isti, gündüz 10-15° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər dağlarda duman olacaq. Qərb küləyi əsəcək, gündüz bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 4-7°, gündüz 10-15° isti, dağlarda gecə 0-5°, gündüz 8-13° isti olacaq.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az


# Beynəlxalq aləm




## Almaniyanın səkkiz hava limanını tətil bürüdü

Dünən Almaniyanın səkkiz hava limanında təhlükəsizliyin təmin olunması sahəsinin 23 min əməkdaşı "Verdi" həmkarlar ittifaqinin çağırışı ilə tətil etmişdir. Bu barədə "Alman dalğası" radiostansiyası xəbər verir.

Tətil gecəyarısı Hamburq, Hannover və Bremendə başlamışdır. Hava limanının təhlükəsizliyinə cavabdeh olan personal Frankfurtda saat 02:00-dan 20:00-dək, Drezdendə 03:00-dan 21:00-dək, Münxendə 03:30-dan 24:00-dək, Leypsiq/Halledə 04:00-dan 18:00-dək, Erfurtda 06:00-dan 22:00-dək işini dayandırmışdır.

Bu, ölkənin hava limanlarında keçirilmiş ən irimiqyaslı tətillərdən biri idi. Almaniya Mülki Hava Limanları Birliyi (ADV) ölkənin hava nəqliyyatı şəbəkəsinin iflic vəziyyətə düşdüyünü bildirmişdir. ADV-nin məlumatına görə, azı 220 min sərnişin zərər çəkmişdir. Təkcə Frankfurtda planlaşdırılmış 1200 eniş və uçuş reysindən 570-i təxirə salınmışdır.

"Verdi" həmkarlar ittifaqı hava limanlarında təhlükəsizliyə görə məsuliyyət daşıyan 23 min işçinin bir saatlıq maaşını 20 avroyadək artırmağı tələb edir. Mövcud tarif sazişinə görə, bir saatlıq iş üçün 17,60 avro ödənilir.

## ABŞ hərbçiləri sentyabrın sonunadək Meksika ilə sərhəddə qalacaqlar



Pentaqon Meksika sərhədində təhlükəsizlik tədbirlərini ləğv etməməyi qərara almışdır. ABŞ Daxili Təhlükəsizlik Nazirliyinin sorğusuna əsasən, Müdafiə Nazirliyi 2 mindən çox hərbi qulluqçunun sərhəddə qalması müddətini sentyabrın 30-dək uzatmışdır.

Milli Qvardiya ötən il aprel ayında sərhədə göndərilmişdir. O vaxt Prezident Donald Tramp cənubdan gələn miqrant axınını dayandırmağa çağırmışdı. Onun fikrincə, cənubdan ABŞ ərazisinə keçən meksikalılar və Cənubi Amerikanın digər dölətlərinin vətəndaşları üzündən ölkəyə narkotik maddələr daxil olur.

Dövlət başçısı həmçinin Meksika ilə sərhəddə divar inşa etdirmək istəyir. Lakin demokratlar bu layihəyə qarşı çıxırlar. Bu səbəbdən ötən ilin dekabrından bəri Amerika hökumətinin işi dayandırılmışdır.

## Türkiyə sahillərinin yaxınlığında qaçqın qayığı batdı



Türkiyənin Quşadası şəhəri sahilinin yaxınlığında qeyri-leqal miqrantları daşıyan qayıq batmışdır. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Qayığa su dolması barədə məlumat daxil olduqdan sonra Türkiyə sahil mühafizəsi adamları xilas etmək üçün tədbirlər görmüşdür. İlkin məlumata görə, 46 qaçqın xilas edilmiş, 4 yaşlı bir qızın meyiti tapılmışdır.

Miqrantlar Yunanıstana keçmək istəyirmişlər. Xilas edilmiş qaçqınlar, o cümlədən uşaqlar Quşadası dövlət xəstəxanasına çatdırılmışdır. Hadisənin baş verdiyi rayonda axtarış-xilasetmə işləri davam edir.

## İran peykini Yer orbitinə çıxara bilmədi



İran özünün "Pəyam" peykini müəyyən olunmuş orbitə çıxara bilməmişdir. Bu barədə İranın telekommunikasiyalar naziri Cavad Azəri Cəhromi məlumat vermişdir.

Nazirin dediyinə görə, daşıyıcı raket dünən yerli vaxtla saat 04:00-da "İmam Xomeyni" kosmodromundan start götürmüşdü. O qeyd etmişdir ki, daşıyıcı raketin birinci və ikinci mərhələləri ştat rejimində normal işləmiş, lakin daşıyıcıdan ayrılma zamanında texniki nasazlıq baş vermişdir. Peyk lazımi sürəti yığa bilməmiş və müəyyən olunmuş orbitə çıxmamışdır.

Yarım ay əvvəl Tehran bəyan etmişdi ki, qeyri-hərbi təyinatlı iki peyk - "Pəyam" və "Dusti" orbitə göndəriləcək.

Ötən il oktyabrın 3-də ABŞ-ın dövlət katibi Mayk Pompeo bildirmişdi ki, İran daşıyıcı raketlərdə ballistik raketlər istehsalında tətbiq olunan texnologiyalardan istifadə edir. O, Tehranı peyk buraxılışından imtina etməyə çağırmışdı.

## Ayda ilk dəfə bioloji eksperiment keçirildi



Çinin Ayın qaranlıq tərəfinə göndərdiyi "Çane-4" zondu tarixdə ilk dəfə olaraq onun səthində bioloji eksperiment keçirmişdir. Bu barədə Çin mərkəzi televiziyası xəbər verir.

Məlumata görə, aparat özü ilə bir sıra canlı orqanizmlər aparmışdır. Məsələn, zondun içərisində pambıq və kartof toxumları var. "Çane-4"-ün Yerə göndərdiyi fotoşəkillərdə pambıq toxumunun cücərdiyi görünür.

Xatırladaq ki, zond yanvarın 3-də Ayın qaranlıq tərəfinə enmişdir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudov və institutun kollektivi BDU-nun Qazax filialının direktoru, əməkdar elm xadimi, professor

**VÜSƏT ƏFƏNDİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi iş yoldaşları Həsən Süleymanlıya atası

**ERKİN SÜLEYMANLININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Nizami Rayon Məhkəməsinin kollektivi Qaradağ Rayon Məhkəməsinin sədri Sədrəddin Hacıyevə əzizi

**SABİR HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Bahadur İmanquliyevə əzizi

**VƏZUHƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mahmud Məmmədov və "Günay Bank" ASC-nin kollektivi Zaur Əhmədova əzizi

**SEVİNC ADİL QIZI ƏFƏNDİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

M.Ə.Əfəndiyev adına 2 nömrəli şəhər klinik xəstəxanasının kollektivi Anesteziologiya-reanimasiya və intensiv terapiya şöbəsinin həkimi Sevinc Osmanovaya həyat yoldaşı

**MEHMAN NOVRUZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8173
Sifariş 132
Qiyməti 40 qəpik